QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 157 (6357) 2 sentyabr 2021-ci il Qiymәti 40 qәpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Prezidentin köməkçisi: "Oktyabrın 1-dək iki dozadan birini qəbul etmiş şəxslər ictimai iaşə obyektlərinə daxil ola biləcəklər"



Bax 6

## Ərdoğan: Türkiyənin PUA-ları bütün dünyanın dilindədir



Bax 3

## Putin Paşinyanın telefon zənglərinə niyə cavab verməyib?



Bax 6

## Həkim-fitoterapevt: İybilmənin bərpası üçün fitoterapiya müalicəsi faydalıdır

İybilmənin qismən və ya tamamilə itirilməsi müvafiq olaraq...



Bax 13

# Prezident İlham Əliyev: "Əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə..."



## Mirzoyanın xəstəliyi, Lavrovun eyhamı, Bakının səbri...

Rusiyada olan Ermənistanın yeni XİN rəhbəri Ararat Mirzoyan Rusiyadan olan həmkarı Sergey Lavrovla görüşündə deyib: "Hazırkı mərhələdə sülh razılaşması ilə bağlı heç bir danışıqlar...



Bax 10



## Beynəlxalq məhkəmə erməniləri vəhşi xalq kimi tanıya bilər

Bax 8

## Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanan idmançımızı təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalı qazandıran idmançımızı təbrik edib.

Birinci vitse-prezidentin bununla bağlı instaqram hesabında etdiyi paylaşımda deyilir:

"İdmançımız Vəli İsrafilov "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti, 11-ci qızıl medalı qazandırdı. Azərbaycanın paralimpiya rekordunu yeniləmiş ən gənc çempionunu səmimi-qəlbdən təbrik edir, milli yığmamızın bütün üzvlərinə güc, enerji, yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram".

## "Yeni Azərbaycan Partiyasının yaranması ilə ölkəmizin ictimai-siyasi həyatında yeni tarixi mərhələnin əsası qoyulub





Bax 4





## Xankəndidə növbəti təxribat hazırlanır - Rusiya Ermənistana hansı xəbərdarlığı etdi?

## Bu il şəhid ailələri və müharibə əlilləri üçün çoxmənzilli yaşayış binaları təqdim olunacaq



Bax 10

## Sentyabrın 15-də dərslər açılır? Ekspertlər aydınlıq gətirdilər



Bax 7

"Ali təhsil müəssisələrində tədrisin təşkili artıq kifayət qədər ciddi problemə çevrilib. Çünki orta ümumtəhsil məktəblərində pandemiya dövründə tədrisin təşkili həftədə iki dəfə həyata keçirilsə də, ənənəvi təhsil bərpa edilsə...

## Milli dönüklərin, xəyanətkar ünsürlərin bəd niyyətləri



Bax 13

## Hande Harmancı: "Qrip mövsümünün yaxınlaşması epidemioloji vəziyyətə təsir edə bilər"



Bax 12

## Ronaldo "Yunayted" formasında!





Bax 16

# Prezident İlham Əliyev: "Əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə..."

*Azərbaycan regionda sülh və sabitliyin, dayanıqlı inkişafın təmin edilməsində maraqlı olan, özünü bu prosesin bir parçası kimi görərək imkanlardan faydalanmaq istəyən hər kəsin önündə geniş fürsətlər dünyasının qapılarını açıb. Regionun gələcək mənzərəsini tərəqqipərvər bəşəriyyətin gözləri önündə şəkilləndirib. Eyni zamanda, belə bir gələcəyin qurulması, bölgənin təhlükəsizliyini, inkişaf axarını təhdid edən amillərin aradan qaldırılması üçün əsas gözləntiləri öz ünvanlarına yetirir. Bu gözləntilərin mühüm bir qismi 10 noyabrda imzalanmış üçtərəfli Bəyanata uyğun olaraq sülhyaratma missiyasını öz üzərinə götürmüş Rusiyaya aiddir.*



Azərbaycan Prezidenti İlham Əliyev "CNN Türk" televiziyasının müxbirinə müsahibəsində Rusiyanın sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərə Ermənistandan silahlar və hərbçilər göndərilə bilmədiyini deyərək vurğulayıb ki, bu, üçtərəfli Bəyanata ziddir: "Təəssüf ki, bu günə qədər davam edir. Biz bir neçə dəfə şifahi qaydada öz iradlarımızı bildirmişdik. Ancaq bunun nəticəsi olmadı, ona görə biz rəsmi qaydada bunu bildirdik". Dövlət başçısının müsahibəsində diqqətə çatdırdığı faktlar, rəqəmlər vəziyyətin Azərbaycanın tam nəzarəti altında olduğunu və heç bir məntiqi əsasa söykənməyən, sülh proseslərinə xələl gətirən belə halların aradan qaldırılmasının zəruriliyini göstərdi: "Nədir, Ermənistan yeni müharibəyəmi hazırlaşır?! Əgər belədirsə, onda biz qabaqlayıcı tədbirlər görəcəyik" - dedi və bildirdi ki, "Mən bunu demişdim və bir daha demək istəyirəm, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik".

### İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır"

Bir sözlə, dövlət başçısı bir daha vurğulayıb ki, məsuliyyətsiz bəyanatlar səsləndirən Ermənistan rəsmiləri də bundan nəticə çıxarmalı, revanşist xülyalara düşməkdənsə, fikirlərini sülh, əməkdaşlıq, hər kəs üçün birgə inkişaf imkanlarına yönəltməlidirlər. Prezident İlham Əliyevin verdiyi mesajlardan qorxuya düşən düşmənin Ağdərəyə od vurması bizə 44 günlük müharibədən sonrakı dövrü - Ağdam, Kəlbəcər və Laçının Azərbaycana təhvil verilməsi üçün ayrılan müddətdə ərazilərimizi tərk edən ermənilərin evlərə od vurub, yandırması hadisəsini xatırlatdı. Buradan belə bir nəticə çıxır ki, Ermənistan hərbi-siyasi rəhbərliyi Azərbaycan Prezidentinin verdiyi mesajı nəinki anlayıb, II Qarabağ müharibəsindən sonra son zamanlar yenidən düşdükləri ekstaz hissindən uzaqlaşmağa məcbur edib.

Prezident İlham Əliyevin "CNN türk" telekanalına müsahibəsindən sonra Ermənistan tərəfinin belə bir addım atması onların regiondakı reallığı zingildəyə-zingildəyə məcbur qəbul etdiklərini göstərir. Həmin əraziləri çox qısa zamanda tərk etməkdən başqa çıxış yollarının qalmadığını yaxşı anlayan Ermənistan tərəfi, ərazilərə od vurmaqla yenə də öz murdar, məkirli niyyətlərini ortaya qoyaraq maksimum şəkildə Azərbaycanın flora, faunasına ziyan vurmaq niyyətindədirlər.

Azərbaycan Prezidenti "Laçın dəhlizi bizim gözümüzün önündədir. Siz Şuşada olarkən Laçın dəhlizini görə bilərsiniz. Orada bir yer var, yuxarıdan bütün avtomobillər görünür. Oradan məsafə bəlkə də 10 metrdir. Bizim orada təbii ki, texniki vasitələrimiz, kameralarımız var. Biz Laçın dəhlizi ilə Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan bölgələrdə baş verən hadisələri də izləyirik" açıqlaması rəsmi Moskvaya "Sizin bölgəyə sülhü, təhlükəsizliyi, sabitliyi təmin etmək üçün gəlmənizə razılıq verdik, belə özbaşınalıqlar etməyə yox. Düşünməyin ki, etdiyiniz qanunsuzluqlardan xəbədar deyilik. Biz nəinki başlı-başına buraxdığınız ermənilərə, eyni zamanda sizə də nəzarət edirik" mesajını vermiş oldu. Dövlət başçısı bununla Rusiya sülhməramlı kontingentinin hər addımını rəsmi Bakının diqqətlə izlədiyini Moskvaya çatdırdı.

Dövlət başçısı müsahibə zamanı Rusiyadan gözləntilərimizi açıq şəkildə bəyan etdi. O, Kreml rəhbərliyindən üçtərəfli Bəyanatın bütün müddəaları yerinə yetirilməsində məsuliyyətli olmağa çağırdı. "Rusiya Azərbaycanın qonşusu və Ermənistanın yaxın müttəfiqi kimi, əlbəttə, bu bölgədə xüsusi rol oynayır" deməklə Rusiyadan Azərbaycana dost, müttəfiq olmaz mesajı ilə Moskvanın Azərbaycanın etimadını qırdığına işarə edib. Rusiyanı bölgədə uzunmüddətli sülhü təmin etmək üçün addımlar atmağa çağıran dövlət başçısı rəsmi Bakının gözləntiləri barədə deyib: "Rusiya Ermənistanı silahlandırmasın. Biz bu məsələni Rusiya tərəfinə çatdırmışıq. Bu, bizi narahat edir. Müharibə başa çatıb. Yəni, erməni xalqı da bu vəziyyətlə barışıb. Erməni rəhbərliyi də məğlubiyyətlə barışıb və Ermənistanda keçirilmiş son parlament seçkiləri bunu göstərdi. Tarixdə görünməmiş bir mənzərədir ki, məğlub edilmiş rəhbərlik, yenidən xalqdan səs alır. Belə olan halda, əlbəttə ki, Ermənistanı silahlandırmaq heç bir məntiqə sığmır".

30 illik işğal zamanı və 44 günlük müharibənin də gedişində Rusiyadan Ermənistana yük təyyarələri və quru yollarla daşınan silah-sursatlar, ağır hərbi texnikaların aqibəti heç kimə sirr deyil. Bu gün Bakının mərkəzində Hərbi Qənimətlər Parkında məhv edilən Ermənistan Silahlı Qüvvələrinə məxsus hərbi texnikanın məhz 90%-nin Rusiyaya aid olduğundan hər kəs xəbərdardır. Azərbaycan Prezidentinin Rusiyanın Ermənistanı silahlandırmasının məntiqsiz adlandırması, əslində, Moskva ilə yanaşı Ermənistan üçün də ciddi bir xəbərdarlıq olmalıdır. Çünki son 30 il ərzində Rusiyanın Ermənistana milyardlarla dollar dəyərində pulsuz-parasız verdiyi silahların böyük bir qismi Hərbi Qənimətlər Parkında dağılmış muzey eksponatları kimi sərgilənir. Əgər Rusiya üçtərəfli bəyanatın vasitəçi tərəfi kimi öz missiyasını yerinə yetirməzsə, Azərbaycan beynəlxalq sənədlərə söykənən ərazi bütövlüyünü bərpa etmək hüququnu yenidən öz üzərinə götürəcək. Azərbaycan Prezidentinin "Biz ordumuzun silahlanmasına nə qədər lazımdır, o qədər də vəsait ayıracağıq və bunu edirdik. Sadəcə, hesab edirik ki, artıq müharibə bitdi, buna ehtiyac yoxdur. Bölgənin yenidən silahlandırılması prosesinə biz təşəbbüskar olmamışıq və deyilik. Ümid edirik ki, digər tərəfdaşlar da buna uyğun addımlar atacaqlar" sözləri də Ermənistan rəhbərliyinə və onu silah-sursatla təmin edən havadarlarına məhz bundan ibarətdir.

Çünki Azərbaycan bölgədə yeni müharibə istəmir, lakin Ermənistan qanunsuz silahlanmağa davam edərsə və bəyanatın müddəaları yerinə yetirilmək əvəzinə təxribatlar artarsa, Azərbaycan Ordusu yenidən ön plana çıxaraq missiyanı özü tamamlayacaq. Bir sözlə, Prezident İlham Əliyev "CNN Türk" televiziyasına müsahibəsində həm Ermənistana, həm də havadarlarına ciddi mesajlar verməklə, düşməni bir daha xəbərdar etdi ki, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. Və İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır. Təbii ki, düşmənlərimiz bu xəbərdarlıqdan ciddi nəticə çıxarmalı, yenidən müharibə əhval-ruhiyyəsinə düşməməlidirlər. Unutmamalıdırlar ki, 30 il ərzində xarici havadarlarının köməyi ilə işğal altında saxladıqları Azərbaycan ərazilərindən 44 gün ərzində qovuldular. Bu müddət ərzində Ermənistan ordusu darmadağın edildi. Dünya ictimaiyyəti bir daha şahidi oldu ki, Ermənistan qonşu dövlətlərin torpaqları hesabına həlo də "böyük Ermənistan" dövləti yaratmaq iddiasından əl çəkməyib və öz ərazisini bu yolla daha da genişləndirmək istəyir. Ancaq bu günə kimi məğlubiyyətlərindən ciddi nəticə çıxarmalı, son variant kimi sülh danışıqlarına razılıq verməlidir.

### "Əgər buna razılıq verməsələr, sonrası onların özləri üçün pis olacaq"

Azərbaycan Prezidenti müsahibəsində məğlub Ermənistana düz yol göstərərək bildirib ki, əgər buna razılıq verməsələr, sonrası onların özləri üçün pis olacaq.

"Ermənistan yeni müharibəyəmi hazırlaşır?! Əgər belədirsə, onda biz qabaqlayıcı tədbirlər görəcəyik. Mən bunu demişdim və bir daha demək istəyirəm, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır".İkinci Qarabağ müharibəsinin Qalib Sərkərdəsi İlham Əliyev "CNN Türk" kanalına müsahibəsindəki səsləndirdiyi bu fikirləri ilə, əslində, tək məğlub Ermənistana deyil, Azərbaycana qarşı düşmən mövqelərdə duran, ölkəmiz üçün yeni təhdidlərə cəhd etmək xülyasında olan bütün qüvvələrə aşkar xəbərdarlıq mesajı verdi. Bir məqamı xatırlatmaq istərdik ki, Azərbaycan Prezidenti müharibədən öncə də bir neçə dəfə belə xəbərdarlıqlar etmişdi. Amma Ermənistan və havadarları bu xəbərdarlıqlara əhəmiyyət verməyincə "dəmir yumruq" işə düşdü və düşmənin başını əzib ədaləti bərpa etdi. Bu gün diktəni Prezident İlham Əliyev edir və Ermənistan məğlub ölkə kimi Azərbaycan Prezidentinin fikirləri ilə hesablaşmağa məhkumdur. Lakin görünən odur ki, Azərbaycan qarşısında diz çökən bu ölkə son dövrlərdə yenə havadarlarına arxalanaraq əl atdığı təxribatlarla nəsə etməyə çalışır. Buna görə də Azərbaycan Prezidenti Ermənistana və havadarlarına mesaj göndərməklə xatırlatma etdi. Prezident dedi ki, üçtərəfli 10 noyabr Bəyanatının bütün müddəalarına qeyd-şərtsiz əməl olunmalıdır. Əgər Ermənistan buna əməl edərsə, Cənubi Qafqazda bundan sonra davamlı sülh, sabitlik və inkişaf bərqərar ola bilər. Eyni zamanda iqtisadi-ticari əlaqələrdə yeni mərhələ başlaya bilər və bu həm də Ermənistanın xeyrinə işləyər. Dövlətimizin başçısı bir daha xatırlatma etdi ki, "dəmir yumruq" istənilən an işə düşə bilər. Odur ki, məğlub Ermənistanın İlham Əliyevin şərtləri ilə hesablaşması ən doğru yoldur. Əks təqdirdə yenə də uduzan Ermənistan olacaq.

**RƏFİQƏ HÜSEYNOVA**



# Ərdoğan: Türkiyənin PUA-ları bütün dünyanın dilindədir

Türkiyə PUA-ların Suriyadan Qarabağa qədər bir çox münqaişə zonalarında, həmçinin, terrorizmə qarşı mübarizədə uğurlu tətbiqi, bu gün bütün dünyanın dilindədir. Bu sözləri türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Müdafiə Universiteti nəzdində Dəniz və Hərbi-Hava Akamediyasının məzunlarına diplomların təqdim edilməsi mərasimində çıxışı zamanı bildirib.

Türkiyənin tanklar, artilleriya qurğuları, raketlər, radarlar, bombalar, tüfənglər daxil olmaqla müxtəlif müdafiə sanəyesi məhsulları istehsal edə biləcək ölkəyə çevrildiyini vurğulayan Prezident, son onilliklər ərzində Türkiyə Silahlı Qüvvələrinin və ölkənin hərbi-sənaye kompleksinin böyük uğur əldə etdiyini qeyd edib.

# Müdafiə Nazirliyi: "Ermənistan ordusunda baş verən cinayətlər və qanlı insidentlər orada hökm sürən özbaşınalığın nəticəsidir"




***Azərbaycan Respublikasının Müdafiə Nazirliyi son vaxtlar Ermənistanın rəsmi və qeyri-rəsmi nümayəndələrinin müxtəlif məsələlərlə bağlı yaydığı əsassız bəyanatlarına münasibət bildirib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan açıqlamada qeyd edilib ki, son vaxtlar Ermənistanın rəsmi və qeyri-rəsmi nümayəndələri Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən guya atəşkəsin pozulması, meşə yanğınlarının törədilməsi, mal-qara oğurluğu, kənd sakinlərinə qarşı müxtəlif təzyiqlərin edilməsi və digər mövzularda əsassız iddialara söykənən bəyanatlar yayırlar.

Bildiririk ki, bu gün Ermənistan kütləvi informasiya vasitələrində Azərbaycan Ordusu tərəfindən snayper tüfəngindən açılmış atəş nəticəsində erməni hərbi qulluqçunun həlak olması barədə yayılan məlumat da yalandır, təxribat xarakteri daşıyır. Bu gün məlumatda göstərilən istiqamətdə Azərbaycan Ordusunun bölmələri tərəfindən heç bir atəş açılmayıb.

Ermənistan ordusunda baş verən cinayətlər və qanlı insidentlər orada hökm sürən özbaşınalıq və nizamnamədən kənar münasibətlərin nəticəsidir. Bu hadisələrin Azərbaycan Ordusu ilə heç bir əlaqəsi yoxdur.

# Putin Paşinyanın telefon zənglərinə niyə cavab verməyib?



## Artıq Rusiyanın siyasi dairələrində belə bir məsələ danışılır ki...

Ermənistanın "Past" qəzetinin yazdığına görə, avqustun 25-də Azərbaycan SQ-i tərəfindən təxminən 3 sutka ərzində Gorus-Qafan yolu bağlandı. Bu olayın səbəbini isə belə təxmin etmək olar - həmin hadisəyə qədər Ermənistanın hərbi qulluqçuları anidən Azərbaycan hərbi qulluqçusu Şirəliyev Ruslan Nəriman oğluna hücum edərək, onu süngü ilə yaralamışdılar.

İndi isə "Past" qəzetinin məlumatına bir daha baxaq. Erməni nəşrinin yazdığına görə Avqustun 27-də iki rəsmi məlumat yayılmışdı: birində qeyd edilirdi ki, Nikol Paşinyan Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə telefon danışığı aparıb, digərində isə avqustun 25-də Gorus-Vorotan və Şurnux-Karmakar dövlətlərarası yolunun Gorus-Qafan yolu yenidən açılıb. Belə bir versiya da var ki, yolun açılmasında Vladimir Putinin vasitəçiliyi olub.

## Kremldən İrəvana eyham - Rusiyadan yan keçməklə edilən hərəkətlər, sadəcə, mənasızdır

Lakin daha bir məsələyə diqqət yetirmək olar. Belə ki, digər məlumatlara görə, adıçəkilən yol bağlandıqdan sonra Nikol Paşinyan iki gün ardıcıl olaraq Vladimir Putinə telefon zəngi edib. Lakin sonuncu onun zənglərinə cavab verməyib.

Artıq Rusiyanın siyasi dairələrində belə bir məsələ danışılır ki, Rusiya prezidenti bu yolla Paşinyana heç bir sərhədyanı mübahisə məsələlərin onun ortaqlığı, yaxud vasitəçiliyi ilə həll oluna bilinməyəcəyini nümayiş etdirib. Daha dəqiq desək, onun vasitəçiliyi olmadan, yəni Rusiyadan yan keçməklə edilən hərəkətlər sadəcə mənasızdır.

## "Hraparak": Azərbaycan tərəfi yoldan ötən maşınları rahat şəkildə identifikasiya edə bilir"

Bu arada, daha bir erməni nəşri - "Hraparak"ın yazdığına görə, azərbaycanlıların gorus-Qafan yolunda beton bloklar və postlar qoyması erməni sürücülərin psixikalarına təsir etmək məqsədini daşıyır.

"Yolun bu hissəsindən keçid edən maşınların sürəti beton bloklar səbəbindən minimuma endirilir, belə ki, hərəkət üçün dar cığır qoyulub. Azərbaycan tərəfi yoldan ötən maşınları rahat şəkildə identifikasiya edə bilir", yazan adıçəkilən erməni nəşri iddia edir ki, bu vasitə ciddi risklər yaradır. Guya insanlar bu məntəqədən keçməkdən qaçınacaqlar, xüsusilə Ermənistanın Milli Thlükəsizlik Xidməti bir neçə ay öncə sözügedən yoldan sürətlə, dayanmadan hərəkət etməyi tövsiyə olaraq irəli sürmüşdü" "Hraparak" yazır.

Beləliklə, Kreml bu olaydan sonra İrəvana dəqiq eyham vurub və ismarıc yollayıb: məndən xəbərsiz bir addım da kənara atmırsan və bir daha üzünü Qərbə çevirib, mənim siyasətimə ləkə vurmağa çalışmırsan, çünki son asılı qaldığın tük rolunu məhz Rusiya oynayır.

***Rövşən RƏSULOV***


elBoletin

Internacional | Azerbaiyán

Azerbaiyán celebra el Día Internacional de las Víctimas de Desapariciones Forzadas

Día Internacional de las Víctimas de Desapariciones Forzadas

Armenia practicó ampliamente la toma y retención de rehenes, el maltrato y ejecución sumaria de prisioneros de guerra y rehenes azerbaiyanos durante su agresión contra Azerbaiyán iniciada a principios de la década de 1990.

# Nüfuzlu "El Boletin" nəşrində Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş azərbaycanlılar haqqında yazılıb

İqtisadi və siyasi xəbərlərdə ixtisaslaşan İspaniyanın məşhur "El Bolet?n" nəşrində "Azərbaycan Beynəlxalq İtkin Düşmüş Şəxslər Gününü qeyd edir" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə avqustun 30-da dünya ictimaiyyəti Beynəlxalq İtkin Düşmüş Şəxslər Gününü qeyd edərkən, Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərin xatirəsinin Azərbaycanda ehtiramla yad olunduğu vurğulanıb.

"El Boletin" nəşri, Ermənistanın Azərbaycana qarşı 1990-cı illərin əvvəllərində başlayan təcavüzü zamanı azərbaycanlı hərbi əsirlərlə və girovlarla qəddar rəftar edilməsini və Ermənistanda kütləvi şəkildə edam olunmasını diqqətə çatdırır.

İspan nəşri Qarabağ müharibəsinin bitməsinə baxmayaraq 3890 azərbaycanlının (3171 hərbçi, 719 mülki şəxs) taleyinin hələ də məlum olmadığını qeyd edir. Beynəlxalq humanitar hüququn tələblərinin kobud şəkildə pozulması demək olduğuna baxmayaraq, Ermənistan tərəfindən girov götürülən 29 uşaq, 98 qadın və 112 qoca olmaqla Azərbaycanın 267 dinc sakini azad edilməyib. Bu günə qədər 224 uşaq, 357 qadın və 225 qoca olmaqla 1102 azərbaycanlı girov erməni əsirliyindən azad olunub.

"El Boletin" nəşri yazır ki, azərbaycanlılar Qarabağ münaqişəsi zamanı Ermənistan silahlı qüvvələrinin geniş şəkildə həyata keçirdikləri vəhşiliklər nəticəsində ciddi narahatlıq doğuran şəraitdə itkin düşüblər. Nəşrdə qeyd olunub ki, girovların və hərbi əsirlərin qanunsuz saxlanması, onlara işgəncə verilməsi və şəxsi ləyaqətlərinə hücumlar erməni ekstremistləri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən sistematik kollektiv cəza və ayrı-seçkilik siyasətinin bir hissəsidir.

Diqqətə çatdırılır ki, 25 ildən çoxdur Ermənistan itkin düşmüş şəxslərin taleyinin araşdırılması ilə bağlı beynəlxalq hüququn normalarına uyğun olaraq öhdəliklərini yerinə yetirmir. Əksinə, Ermənistan törətdiyi təcavüzə və vurulan saysız-hesabsız ziyana görə öz məsuliyyətini inkar edir, azərbaycanofobiya və nifrət toxumu səpir.

Məqalədə insanlığa qarşı ən ağır cinayətlərdən birinin Azərbaycanın Xocalı şəhərində erməni ekstremistləri tərəfindən törədildiyi bildirilir. Qeyd olunub ki, öldürülən 613 şəhər sakinindən 63-ü uşaq, 106-sı qadındır, 8 ailə tamamilə məhv edilib. Hazırda 36-sı uşaq və 65-i qadın olmaqla 196 Xocalı sakini hərbi Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında (2021-ci il iyulun 1-nə olan məlumatlar) itkin düşmüş kimi qeydiyyatdadırlar. Xocalıda Ermənistan silahlı qüvvələri tərəfindən 16-sı uşaq və 22-si qadın olmaqla girov götürülən 196 nəfərin 95-nə dair sübutlar var. Azərbaycan hökuməti münaqişə nəticəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün milli səviyyədə müvafiq tədbirlər görüb.

"El Boletin" nəşri qeyd edir ki, Azərbaycan ərazilərinin erməni işğalından azad edilməsi itkin düşənlərin taleyini müəyyənləşdirməyə imkan verir.

Məqalədə vurğulanıb ki, beynəlxalq səviyyədə Azərbaycan girov və itkin düşmüş insan probleminə fəal şəkildə diqqət çəkib. Azərbaycan BMT-nin Baş Assambleyasının itkin düşənlərlə bağlı hər iki ildən bir qəbul etdiyi Qətnamənin qəbul olunmasının əsas təşəbbüskarlarından biridir. Azərbaycan, eyni zamanda, BMT-nin Qadınların Statusu üzrə Komissiyasının "Silahlı münaqişələr zamanı girov götürülmüş qadınlar və uşaqların, o cümlədən sonradan həbs edilmiş qadınların azad edilməsi" Qətnaməsinin təşəbbüskarıdır. Həmin Qətnamə silahlı toqquşmada bütün tərəfləri təkidlə hərbi əməliyyatlar zamanı girov götürməməyə çağırır.

Qeyd olunub ki, azərbaycanlılara qarşı ağır cinayətlərdə günahkar olanların məsuliyyətə cəlb edilməsi ilə bağlı Azərbaycanda cinayət işi açılıb.

# “Yeni Azərbaycan Partiyasının yaranması ilə ölkəmizin ictimai-siyasi həyatında yeni tarixi mərhələnin əsası qoyulub”

*YAP Yevlax şəhər təşkilatının X hesabat konfransı keçirilib*

Sentyabrın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Yevlax şəhər təşkilatının videoformatda X hesabat konfransı keçirilib.

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.








Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Yevlax şəhər təşkilatının sədri, Milli Məclisin deputatı İlham Məmmədov hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, 1992-ci ilin noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaranması ilə ölkəmizin ictimai-siyasi həyatında yeni tarixi



mərhələnin əsası qoyulub. Ümummilli Lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaranan Yeni Azərbaycan Partiyası özünü bütün mənalarda təsdiqləyərək, tarixin yeni çalarlarını özündə birləşdirməyi bacarıb. Partiyanın şəhər təşkilatının sədri qeyd edib ki, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin möhkəm təməl üzərində qurulan Yeni Azərbaycan Partiyasına rəhbərliyi dövründə partiyamız daha böyük əzmkarlıq və yaradıcılıq nümayiş etdirib və partiyanın sosial bazası əhəmiyyətli dərəcədə güclənib.



İ.Məmmədov deyib ki, hesabat dövründə partiya sıralarına 675 nəfər yeni üzv qəbul olunub. Hazırda YAP Yevlax şəhər təşkilatının 64 ərazi ilk partiya təşkilatının sıralarında 8777 nəfər partiya üzvü var. Onlardan 4718 nəfəri qadınlardır. Bildirilib ki, hesabat dövründə partiya sıralarına qəbul olunanların 90 faizini gənclər təşkil edir.

Sonra Yeni Azərbaycan Partiyası Yevlax şəhər təşkilatının Nəzarət Təftiş Qrupunun sədri Səməd Hüseynovun hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, ”Mədəniyyət” məhəlli ərazi ilk partiya təşkilatının sədri, şəhərin Heydər Əliyev adına sarayının direktoru Seymur Novruzov, YAP Yevlax şəhər təşkilatı Qadınlar Şurasının sədri, rayonun ”Kür” qəzetinin baş redaktoru Əminə Əhmədova, şəhər təşkilatı Gənclər Birliyinin sədr müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şö-



bəsinin məsləhətçisi Fərid Vaqifli çıxış edərək rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətinə münasibət bildiriblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Yeni Azərbaycan Partiyasının VII Qurultayında ölkə Prezidenti, Partiyamızın sədri cənab İlham Əliyevin proqram xarakterli, müasir dövrün, 44 günlük İkinci Qarabağ müharibəsində Qələbəmizin yaratdığı yeni reallıqları özündə əks etdirən nitqi bütün partiya üzvləri üçün yeni vəzifələr müəyyənləşdirib. Qurultayda edilən çıxışlarda belə bir əminlik ifadə edildi ki, partiya yenliləşmiş formatda daha fəal olacaq, qarşıda duran problemləri daha fəal icra edəcəkdir. Qarşıya qoyulan vəzifələrin icrasında bütün partiya üzvlərinin qüvvə və bacarıqlarının səfərbər edilməsinin vacibliyini xüsusi vurğulayan Ə.Tağıyev qeyd edib ki, Azərbaycan dövlətinin əldə etdiyi bütün uğurlara Prezident İlham Əliyevin qətiyyəti və müdrik rəhbərliyi sayəsində nail olunub.





YAP üzvlərinin hər zaman dövlətin inkişafı üçün bütün gücünü səfərbər etdiyini və bu inkişaf prosesində fəal iştirak etdiyini vurğulayan Ə.Tağıyev YAP Yevlax şəhər təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Yevlax şəhər təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.



# Sevinc Fətəliyeva: Qarabağın dirçəlişi prosesi çox sürətlə həyata keçirilir

Azərbaycan dövləti tərəfindən Qarabağın dirçəlişi prosesi çox sürətlə həyata keçirilir. Bu faktı Qarabağın incisi, mədəniyyət paytaxtımız Şuşa şəhərinin bərpasının timsalında aydın şəkildə görmək mümkündür. Bugünlərdə Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya növbəti səfəri zamanı həyata keçirilən təməlqoyma və açılış mərasimləri, reallaşdırılan digər tədbirlər Şuşa şəhərinin qısa müddətdə tam bərpa olunacağını deməyə əsas verir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva bildirib.

Deputat diqqətə çatdırıb ki, dövlətimizin başçısı müharibədən sonra azad olunmuş ərazilərə səfər edir, həmin torpaqlardan qarşıda duran vəzifələrlə bağlı öz mesajlarını verir. Bu baxımdan, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə səfəri böyük əhəmiyyət kəsb edir. Deputatın sözlərinə görə, Prezident İlham Əliyev azad olunmuş bölgələrə qalib ordunun və dövlətin qalib sərkərdəsi kimi səfər edir. Şuşa səfəri zamanı bir sıra infrastruktur layihələrinin, quruculuq işlərinin təməli qoyuldu, Şuşa şəhərinin baş planı təqdim edildi: ”30 ilə yaxın müddət ərzində bu torpaqları işğal altında saxlayan düşmən dövlət siyasəti dərəcəsinə çatdırılan terror hərəkətləri törədib, evləri, infrastrukturu dağıdıb, yeraltı və yerüstü sərvətləri talan edib. Bir sözlə, bir vaxtlar həyat qaynayan rayonlarda dədə-baba torpaqlarından qovulan azərbaycanlıların ev-eşikləri erməni vandalları tərəfindən yerlə-yeksan olunub. Bəli, bu, erməni xislətinin mahiyyətini, vandallığını, vəhşiliyini göstərir”.

S.Fətəliyeva qeyd edib ki, dövlətimizin başçısının Şuşaya növbəti səfəri də əlamətdar hadisələrlə yadda qaldı. Səfər zamanı dövlətimizin başçısı Şuşada bərpa-quruculuq işləri ilə tanış oldu. Bülbülün ev muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin abidəsinin, ”Qarabağ” otelinin açılışları oldu, yeni yaşayış məhəlləsinin təməli atıldı və s. Molla Pənah Vaqifin məqbərəsinin açılışı, eləcə də, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Vaqif Poeziya Günlərinin keçirilməsi böyük mədəniyyət hadisəsidir. Bütün bunlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi diqqəti nəticəsində Şuşa şəhəri tezliklə dirçələcək, o cümlədən tarixi, mədəni və dini abidələrimiz bərpa olunacaq.

”Vətən müharibəsi dövründə biz xalq olaraq çox güclü həmrəylik nümayiş etdirdik. Siyasi baxışlarından, mövqeyindən və əqidəsindən asılı olmayaraq hər kəs bir amal uğrunda birləşdi. Təbii ki, biz buna Prezidentimizin həyata keçirdiyi uğurlu siyasət nəticəsində nail olduq. Bundan sonrakı mərhələdə isə Prezidentin tövsiyəsinə uyğun olaraq, qələbəmizi siyasi yollarla möhkəmləndirmək, erməni faşizmini və vandalizmini ifşa etmək üçün beynəlxalq müstəvidə fəaliyyətimizi gücləndirməliyik. Qarabağın, o cümlədən tarixi şəhərimiz olan Şuşanın dirçəlişi bu prosesdə mühüm rol oynayır ”, - deyə S.Fətəliyeva vurğulayıb.

# YAP Mingəçevir şəhər təşkilatının X hesabat konfransı keçirilib

Sentyabrın 1-də Yeni Azərbaycan Partiyası Mingəçevir şəhər təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubovun hesabat məruzəsi dinlənilib. Bildirib ki, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan, Partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 44 günlük Vətən müharibəsində böyük şücaət,



qəhrəmanlıq göstərdi və şanlı tariximizin əbədi Zəfər salnaməsini yazdı. Xalqımız hər zaman olduğu kimi, Vətən müharibəsinin ilk günündən Prezident İlham Əliyevin ətrafında müsəlləh əsgər, bir yumruq kimi birləşdi, səfərbər oldu.



Yeni reallıqlar fonunda keçirilən Yeni Azərbaycan Partiyasının VII Qurultayında qəbul olunan qərarların partiyanın qarşısında geniş imkanlar açdığını söyləyən C.Yusubov rəhbərlik etdiyi təşkilatın öz fəaliyyətini yeni tələblər əsasında qurmağa səy göstərdiyini bildirib . C.Yusubov onu da əlavə edib ki, bu gün YAP Mingəçevir şəhər təşkilatının 7827 üzvü var. Onların 4728 nəfəri qadınlar, 2656 nəfəri isə gənclərdir.





Sonra YAP Mingəçevir şəhər təşkilatının Nəzarət Təftiş Qrupunun sədri Yaqub Hüseynovun hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, YAP Mingəçevir şəhər təşkilatı İdarə Heyətinin üzvləri - təşkilatın sədr müavini, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov və Milli Məclisin deputatı Aydın Mirzəzadə, YAP Mingəçevir şəhər təşkilatının sədr müavini, 33 saylı ərazi ilk partiya təşkilatının sədri Təhmasib Hüseynov, 5 saylı ərazi ilk partiya təşkilatının sədri, Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov, şəhər təşkilatının İdarə Heyətinin üzvü, Qadınlar Şurasının sədri Nurcamal Əsgərova hesabat dövrü ərzində görülən işlərdən bəhs ediblər.



Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, yarandığı gündən Yeni Azərbaycan Partiyasının əsas məqsəd və məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub: "Partiyamız 29 ildə öz məqsədlərinə yüksək səviyyədə nail olmaq üçün ciddi səylər göstərib, qəbul etdiyi qərarları, irəli sürdüyü təşəbbüsləri, uğurlu layihələri ilə cəmiyyətdə nüfuzunu artırıb".

Tarixi Zəfərimizin yaratdığı reallıqlardan, yeni mərhələdə partiyanın şəhər və rayon təşkilatlarının üzərinə düşən vəzifələrdən geniş bəhs edən Ə.Tağıyev YAP Mingəçevir şəhər təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Konfransda YAP Mingəçevir şəhər təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# "Vaqif Poeziya Günlərinin bərpası Azərbaycan mədəniyyətinin inkişafına misilsiz töhfədir"



**Azərbaycan Respublikası Milli Məclisinin deputatı, professor Aqiyə Naxçıvanlının yap.org.az-a müsahibəsi**

***- Aqiyə xanım, Azərbaycan Vətən müharibəsində tarixi Qələbə əldə etməklə öz torpaqlarının işğalına son qoydu. Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə davamlı olaraq etdiyi səfərləri necə şərh edirsiniz?***

- Azərbaycanın işğaldan azad edilmiş ərazilərində quruculuq işlərinə hərbi əməliyyatlar dayandırıldıqdan dərhal sonra start verilmişdir. Dövlət başçısının həmin ərazilərə etdiyi səfərlər ilk növbədə aparılan işlərin xüsusi diqqət mərkəzində saxlandığından xəbər verir. Bildiyiniz kimi, hələ ötən ilin noyabr ayının 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı Şuşa şəhərinə yeni avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra layihənin icrasına başlanmışdı. Bu ilin yanvar ayının 14-də isə Qafqazın incisi, Azərbaycan mədəniyyətinin beşiyi olan qədim Şuşa şəhərinin bərpasına başlandı. Ölkə Prezidenti cənab İlham Əliyev ailəsilə birgə Şuşa şəhərinə etdiyi səfərlərdən birinin gedişi zamanı öz çıxışında demişdi: "Otuz il ərzində düşmən torpaqlarımızı işğal altında saxladı. Bu illər ərzində işğalda olan bütün şəhər və rayonlarımız, o cümlədən Şuşa şəhəri talandı, viran qoyuldu, qarət edildi. Ermənilər Şuşanın tarixi erməni şəhəri olduğunu iddia etsələr də, orda heç bir quruculuq işləri aparmayıblar. Erməni vandalları bu torpaqlardan tariximizi, mədəniyyətimizi yox etməyə çalışdılar. Lakin bacarmadılar. Bu gün artıq həmin torpaqların əsl sahibləri geri dönüblər." Ölkə Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə, o cümlədən Şuşa şəhərinə etdiyi hər bir səfəri bu torpaqların tarixən Azərbaycan xalqına məxsus olduğu və bundan sonra da əbədi olaraq belə qalacağı barədə bütün dünyaya verdiyi bir mesajdır.

***- Avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra şairin doğma şəhərində yenidən təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak ediblər. Həm də bu açılış mərasimi Molla Pənah Vaqifin bərpa olunmuş məqbərəsinin önündə keçirildi. Bu hadisənin ölkənin həm mədəni, həm də ictimai-siyasi həyatında kəsb etdiyi əhəmiyyəti barədə nə deyə bilərsiz?***

- 30 ilə yaxın müddət ərzində işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşa şəhərində xalqımızın illərəsrlər boyunca qurub-yaratdığı evlər, muzeylər, məscidlər, tarixi-mədəni abidələrimiz erməni vandalları tərəfindən dağıdıldı, viran qoyuldu, talan edildi. Çünki bu yerlərin onlara aid olmadığını və gec-tez buralardan qovulacaqlarını hamıdan yaxşı elə ermənilər özləri bilirdilər. Torpağın əsl sahibləri həmin torpaqda yollar çəkir, binalar tikir, qurur, yaradır, layihələr həyata keçirir, insanların firavan gələciyini təmin etmək üçün iş görür. Necə ki, bu gün artıq işğaldan azad edilmiş torpaqlarda Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı böyük vüsətlə quruculuq işləri aparır. Şuşa Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edildiyi zaman dövlətimizin başçısı demişdi ki,Şuşada Vaqif Poeziya Günləri bərpa ediləcək, "Xarı bülbül" festivalı yenidən keçiriləcək. Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Bu sözlərin üstündən hələ çox az müddət keçsə də, biz artıq dövlət başçımızın bu vədlərinin də necə ardıcıllıqla həyata keçdiyini müşahidə edirik. May ayının 12-13-də Şuşada, Cıdır düzündə keçirilən möhtəşəm "Xarıbülbül" musiqi festivalı Azərbaycan mədəniyyətinin növbəti təntənəsi oldu. Bu tarixi hadisədən cəmi üç ay sonra, avqustun 30-da Şuşada Vaqif Poeziya Günləri işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə yenidən təşkil olundu. Çox əlamətdar bir haldır ki, Vaqif Poeziya Günlərinin açılışı məhz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının veziri Molla Pənah Vaqifin məqbərəsinin önündə keçirildi. Qeyd etmək lazımdır ki, Vaqifin məqbərəsinin Şuşada ucaldılması qərarını Ulu Öndər Heydər Əliyev vermişdi və bu, eyni zamanda həm mədəni-tarixi, həm də siyasi baxımdan son dərəcə önəmli bir hadisə idi. Ulu Öndərin təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də Şuşada qarlı, şaxtalı havada bu məqbərənin açılışı olmuşdur. Nəzərə almaq lazımdır ki, həmin dönəmdə Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi və ermənilər bütün dünyanı Şuşanın erməni şəhəri olduğuna inandırmaq üçün böyük səylər göstərirdilər. Lakin Ulu Öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldıldı və Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi bir daha öz yerini tapdı. Bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu istiqamətdə atdığı hər bir addım, verdiyi hər bir qərar bütün dünyaya ünvanlanan aydın bir mesaj kimi səslənir -Şuşa Azərbaycandır, Qarabağ Azərbaycandır!

***- Aqiyə xanım, Şuşa həm də strateji əhəmiyyət kəsb edən coğrafi mövqeyə malikdir. Məhz bu baxımdan mədəniyyət paytaxtımızda bu gün aparılan bərpa işlərini necə səciyyələndirə bilərsiz?***

- Təbii ki, Şuşa coğrafi yerləşməsinə görə çox böyük strateji əhəmiyyət kəsb edir. Ötən əsrin 92-93-cü illərində məhz Şuşanın itirilməsi digər rayonların işğalına yol açdı. Biz ilk öncə Şuşanın strateji əhəmiyyətini itirdik və bundan sonra düşmən 1992-ci ilin mayında Laçını, 1993-cü ilin aprelində Kəlbəcəri işğal etdi. Beləliklə Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Ermənistan arasında coğrafi bağlantı yaradıldı və bu fakt, eləcə də o vaxt Azərbaycanda hökm sürən hərc-mərclik, nizami ordunun olmaması, davam edən vətəndaş qarşıdurması bizim məğlubiyyətimizi qaçılmaz etmişdi. Ancaq Azərbaycan xalqı heç vaxt bu işğalla barışmadı. Bu gün şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə bütün torpaqlarımızı, o cümlədən Şuşanı azad edib və bu, bir reallıqdır. 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Şuşa işğala məruz qalandan sonra bütün tarixi abidələr, mədəni abidələr ermənilər tərəfindən dağıdıldı. Həmçinin 39 il əvvəl Şuşada Ulu Öndərin iştirakı ilə açılışı olmuş Vaqifin məqbərəsi də Erməni vandalizminin qurbanı oldu. Lakin torpaqlarımız azad ediləndən sonra məqbərənin bərpasını Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz üzərinə götürdü. Beləliklə, dahi şairimizin məqbərəsi də, Vaqif Poeziya Günləri də bərpa edildi, "Xarıbülbül" festivalı da bərpa edildi. Ümumiyyətlə, Şuşanın bərpası istiqamətində 7 ay ərzində artıq çox böyük işlər görülüb. Şuşanın elektrik təsərrüfatı bərpa edilib, şəhərə suyun verilməsi bərpa olunub, tarixi abidələrin bərpasına start verilib. O cümlədən Xan qızı Natəvanın bulağı bərpa edilib. Hal-hazırda üç məsciddə təmir-bərpa işləri gedir. Qeyd edək ki, bu məscidlərin təmirini də Heydər Əliyev Fondu öz üzərinə götürüb. Şuşada "Xarıbülbül" hoteli istifadəyə verilib və artıq mayıyun aylarında ilk qonaqlarını qəbul edib. Bütün bunlar bir daha göstərir ki, Şuşaya tam mənada zəngin həyatı qaytarmaq üçün bütün zəruri addımlar atılır və bu tədbirlər artıq öz möhtəşəm nəticələrini verməkdədir.

Təəssüflər olsun ki, beynəlxalq təşkilatların o bölgələrdə olan nümayəndələri uzun müddət erməni quldurlarının işğal altında olan ərazilərdə törətdikləri vəhşiliklərin üstünü örtürdülər. Bu talançılıq, bu vəhşilik, bu düşmənçilik bütün dünyanın diqqətini cəlb etməlidir. Məhz buna görə dövlət başçımızın təşəbbüsü ilə həmin bölgələrə jurnalistlər, diplomatik korpusun nümayəndələri dəvət olunurlar. Artıq bütün dünya qəbul etməlidir ki, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi şanlı Qələbə sadəcə bu regionda yaşayan xalqlar üçün deyil, bütün bəşəriyyət üçün çox böyük əhəmiyyət kəsb edir.

***- Aqiyə xanım, bildiyim qədərilə Siz özünüz də Xan qızı Natavanın birbaşa kötücəsisiniz. Bu qan bağlılığı Sizin qəlbinizdə Şuşaya bağlılığınıza nə dərəcədə təsir edir?***

- Tamamilə düz deyirsiz. Bir qədər sadə olsun deyə nəsil şəcərəmizi belə təsvir edim: mənim atam Həbib Naxçıvanski Əkbər Naxçıvanskinin oğludur. Əkbər Naxçıvanskinin anası Xanbikə də Xan qızı Natavanın doğma qızıdır. Beləliklə, mən birbaşa Xan qızı Natavanın kötücəsiyəm. Babam Əkbər Naxçıvanski isə Xan qızının sevimli nəvəsi olub və onun uşaqlıq illəri məhz nənəsinin, Xan qızı Xurşudbanu Natavanın yanında keçib. Təbii ki, bu qan bağlılığı mənim üçün həm qürur mənbəyidir, həm də Şuşaya olan sonsuz məhəbbətimi şərtləndirən əsas amillərdən biridir. Çox istərdim ki, yaxın vaxtlarda bu qədim və müqəddəs şəhərimizi ziyarət edim, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yenidən Şuşaya qaytardığı Natavan bulağından su içim.

# Paytaxt sakinləri məhdudiyyətləri necə qarşıladı? - SORĞU



***Bu gündən Covid-19 pasportu olmayan şəxslərin bəzi ictimai iaşə və qapalı ərazilərə daxil olmasının qadağan olunması ilə bağlı qərar qüvvəyə minib. Bu barədə SİA olaraq, paytaxt sakinləri arasında sorğu keçirdik. Həmin sorğunu sizə təqdim edirik.***



**Paytaxt sakini Hökumət Dadaşov:** "Hökumət çox düzgün qərar verib. Hər şey cənab Prezidentin tapşırığına uyğun olaraq həyata keçirilir. Məncə, bu tədbir insanların sağlamlığı üçün olduqca faydalı olacaq. Yoluxmaların daha da artmasının qarşını almaq üçün mütləqdir ki, hər kəs vaksinasiyadan keçsin. Ancaq bundan sonra rahat şəkildə əvvəlki normalarımıza geri qayıda bilərik. Mən özüm fevral ayında artıq ikinci doza vaksini qəbul etmişdim".



**Paytaxt sakini Ayxan Dadaşov:** "Hesab edirəm ki, bu çox yerində verilmiş qərardır. Aydın şəkildə görürük ki, günlük yoluxmaların sayı kəskin artıb. Hamı vaksin olunsa, lap yaxşı olar. Bununla da, əvvəlki darıxdımız həyatımıza geri qayıdarıq. İndi təəssüflər olsun ki, biri vurdurur, biri vurdurmur. Mən özüm də həm özümün, həm də ətrafdakılarımın həyatını riskə atmamaq üçün vaksinasiyadan elə ilk vaxtdan keçmişəm".

**Paytaxt sakini Zeynəb Sultanova:** "Hamı necə, biz də elə. Mən özüm bu qərarla olduqca razıyam. Özüm də iş yerindən tələb edildiyi üçün vaksinasiyadan keçmişəm. Vaksinasiya ilə bağlı alimlər yetərincə danışır. Onlar bunu məsləhət görürlər ki, yeganə çıxış yolu vaksinasiyadır. Buna görə də, vaksinasiyadan qorxmaq lazım deyil".





**Paytaxt sakini Günay Mirzəyeva:** Mən bu qərarın düzgün qərar olduğunu düşünmürəm. Qapalı ərazilərə Covid-19 pasportu olmadan girişin qadağan olunması nə işə yarayacaq? Güya, belə olduqda virusa yoluxmayacağıq. Mən buna inanmıram. Təəssüflər olsun ki, mən özüm iki doza vaksin qəbul etmişəm. Bunun əks təsiri ilə də üzləşməli oldum".



**Paytaxt sakini Firudin Kazımzadə:** Bilirsiz ki, günü-gündən yoluxmaların sayı artır. Odur ki, dövlətin bu cür qərar verməsi çox yaxşı oldu. Bizim bu bəlaya qarşı yeganə silahımız vaksindir. Odur ki, mütləq vaksinasiyadan keçməliyik ki, özümüzün və ətrafdakılarımızın sağlamlığını qoruyaq. Mən özüm birinci doza vaksini qəbul etdim. İkincinin vaxtı isə sabahdır. İnşallah sabah gedib, ikinci dozanı qəbul edəcəm".



**Paytaxt sakini Mehriban Davudova:** "Mən özüm iki doza vaksin qəbul etmişəm. Belə hesab edirəm ki, tez bir zamanda ölkəmizdə hamı vaksinasiyadan keçməlidir. Nə qədər ki, vaksinasiya prosesi tam olmayacaq, əvvəlki rahatlığımıza qayıda bilməyəcəyik. Odur ki, həm sağlamlığımızı qorumaq, həm də əvvəlki həyatımıza tez bir zamanda qayıtmaq üçün gərək hamı vaksin olunsun".



**Paytaxt sakini Kamran Həsənov:** "Mən hər iki doza vaksini qəbul etmişəm. Çünki virus əleyhinə yeganə silah vaksindir. Bütün dünya pandemiya ilə boğuşur. Odur ki, bu cür tədbirlər yerindədir. Hətta mən deyərdim ki, qaçınılmazdır. Nəzarət daha da güclənDirilməlidir. Bundan başqa yol qalmayıb".



**Paytaxt sakini Röya Rüstəmzadə:** "Covid-19-a yoluxma bu gün olduqca sürətlə artır. Odur ki, hökumətin bu qərarı olduqca yerində verilmiş qərardır. Ümumiyyətlə alimlər, həkimlər açıqlayırlar ki, vaksinasiya olunmaq tamamilə sağlıqlıdır. Yəni bundan qorxmaq çəkinmək lazım deyil. Əksinə, könüllü vaxtı gələn kimi gedib vaksinasiyadan keçmək lazımdır. Sağlamlığımızı riskə atmamalıyıq".



**Paytaxt sakini Elvin Cəmilov:** "Əslində bu çox yaxşı bir qərardır. Mən özüm iki doza vaksin qəbul etmişəm. Heç bir əks təsirini görməmişəm. Özümüzün və ətrafdakılarımızın, sevdiklərimizin həyatını qorumaq üçün vaksinasiyadan mütləq keçməliyik".

***Turqay Musayev***

## YAP Gənclər Birliyi "Ümumrespublika Xəmsə Festivalı"na start verir




Sentyabrın 7-də YAP Gənclər Birliyinin təşkilatçılığı ilə "Nizami Gəncəvi İli"nə həsr olunmuş "Ümumrespublika Xəmsə Festivalı"na start veriləcək.

İlk dəfə açıq havada keçiriləcək intellektual festivalın məqsədi Azərbaycan gəncliyinin dünyagörüşünə, fərdi inkişafına töhfə vermək, onlar arasında mövcud əlaqələri inkişaf etdirmək və milli-mənəvi dəyərlərimizə, tariximizə bağlı vətəndaş kimi formalaşmalarına dəstək olmaqdır. Azərbaycanın bütün regionlarını əhatə edəcək Festivalda ümumilikdə 420 nəfər gənc iştirak edəcək. Yeni Azərbaycan Partiyasına üzv və bitərəf gənclərdən formalaşdırılmış 84 komanda festival çərçivəsində 9 regional turda mübarizə aparacaq. Sentyabr ayı ərzində davam edəcək layihənin finalı Gəncə şəhərində baş tutacaq.

## Prezidentin köməkçisi: "Oktyabrın 1-dək iki dozadan birini qəbul etmiş şəxslər ictimai iaşə obyektlərinə daxil ola biləcəklər"

***Sentyabrın 1-dən etibarən iri ticarət mərkəzlərinə, mehmanxanalara, kafelərə, restoranlara və digər ictimai iaşə obyektlərinə giriş üçün vətəndaşlardan mütləq qaydada COVID-19 pasportu tələb olunur. Oktyabrın 1-dək iki dozadan birini qəbul etmiş şəxslər COVID-19 pasportunu təqdim etməklə ictimai iaşə obyektlərinə daxil ola biləcəklər.***

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib.



Prezidentin köməkçisi qeyd edib ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, oktyabrın 1-dən etibarən isə yalnız hər iki vaksin dozasını qəbul etmiş şəxslər iri ticarət mərkəzlərinin, mehmanxanaların, kafelərin, restoranların və digər ictimai iaşə obyektlərinin xidmətlərindən yararlana biləcəklər.

Şahmar Mövsümov, həmçinin qeyd edib ki, açıq havada fəaliyyət göstərən restoran və kafelərə giriş üçün vətəndaşlardan COVID pasportu və ya immunitet sertifikatı tələb edilmir. İctimai nəqliyyatda isə COVID-19 pasportu ilə bag?lı hansısa məhdudiyyət yoxdur, sərnis?inlərdən yalnız tibbi maskadan istifadə etmək tələb olunur.

# Vüqar Rəhimzadə: ”Möhtərəm Prezidentimizin mədəniyyət paytaxtımıza hər səfəri verdiyi vədlərin reallığa çevrilməsinin təqdimatıdır”



*"Avqustun 29-da dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Qarabağın tacı Şuşamıza sayca beşinci səfəri təkcə xalqımızın deyil, həm də dünya ictimaiyyətinin diqqət mərkəzində oldu. Ümumiyyətlə, möhtərəm Prezidentimizin mədəniyyət paytaxtımıza hər səfəri verdiyi vədlərin reallığa çevrilməsinin təqdimatı kimi dəyərləndirilir.*

Müzəffər Ali Baş Komandan 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən ”Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtdıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!” vədinin davamı olaraq növbəti çıxışlarında ”Xarıbülbül” musiqi festivalının, Vaqif Poeziya Günlərinin bərpa ediləcəyini bildirmişdi. Həmçinin dövlət başçısı Şuşanın əvvəlki simasının bərpa ediləcəyini, dünyanın ən gözəl şəhərləri sırasında olacağını əsas hədəf kimi müəyyənləşdirmişdi. Bu baxımdan artıq əminliklə demək olar ki, Prezident İlham Əliyevin mədəniyyət paytaxtımıza hər səfəri mühüm hadisələrlə dolu Zəfər tariximizi yeni-yeni çalarlarla zənginləşdirir. Cənab İlham Əliyevin Şuşa şəhərinə növbəti səfəri də bir daha bu unikal diyarımızın zəngin mədəni və mənəvi ruhunun dünyaya çatdırılması istiqamətində mühüm addım oldu. Şuşanın dirçəldilməsi, bərpası, yenidən Azərbaycanın mədəniyyət və incəsənət paytaxtına çevrilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində bir sıra açılışlar edildi, ən əsası Vaqif Poeziya Günlərinin keçirilməsi ənənəsi bərpa olundu. Gözün aydın, Qarabağın tacı, Azərbaycanımızın döyünən ürəyi əziz Şuşamız!”

Bu fikirləri ”İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, cənab Prezidentin və birinci xanımın iştirakı ilə Molla Pənah Vaqifin büstünün və məqbərəsinin, Bülbülün ev-muzeyinin açılış mərasiminin keçirilməsi, eyni zamanda, ”Otel və Konfrans Mərkəzi”nin təməlinin qoyulması son 9 ayda erməni əsirliyindən xilas olmasının sevincini yaşayan Şuşamızın mədəni və sosial həyatında mühüm hadisə oldu. ”Qarabağ” hoteli əsaslı təmirdən sonra öz qapılarını yenidən qonaqların üzünə açdı: ”Dünyaya səs salan, Azərbaycan xalqının tolerantlığına, tarixinə, mədəniyyətinə bağlılığının təqdimatı olan, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən ”Xarıbülbül” musiqi festivalının ardınca Vaqif Poeziya Günlərinə ev sahibliyi edən Şuşanın qonaqları gördükləri unikal mənzərələrdən heyrətlərini gizlədə bilmirlər. Qısa müddətdə bərpa və quruculuq işlərinin miqyasının genişliyi, ən əsası Şuşanın sözün əsl mənasında dirçəldilməsi hər bir azərbaycanlının qəlbində sonsuz qürur hissi yaratmaqla yanaşı, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vaqif Poeziya Günlərinin rəsmi açılışındakı nitqində yer alan, işğalçı Ermənistana və onun havadarlarına ünvanlanan ”Biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq” bəyanatı sabahımıza böyük inam, əminlik, gözü hələ də Şuşamızda olan yağı düşmənə ciddi mesaj oldu.”

V.Rəhimzadə vurğulayıb ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş torpaqlarımıza, xüsusilə mədəniyyət paytaxtımız Şuşaya hər səfəri ermənilər tərəfindən böyük kədərlə qarşılanır: ”30 il Şuşanı erməni şəhəri kimi təqdim etməyə çalışan düşmən bunu bacara bildimi? Təbii ki, yox! Çünki yalanın həqiqət üzərində qələbəsi mümkün deyil. Hər zaman danışan tarix, onun əsas yardımçısı isə əlahəzrət fakt olur. Dövlət başçısı İlham Əliyev sözügedən tədbirdəki nitqində ”Əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb” fikirləri ilə bir daha bu reallığı da açıqladı ki, torpaqların sahibi qurucu, bərpaedici, hər daşını, qayasını bir tarix kimi qoruyan olur. Dünya Azərbaycanın timsalında bunu görür. Dağıtmaq, məhv etmək, özgəsinin torpağına göz dikmək ermənilərin xislətidir. Ermənistanda nə qədər hakimiyyət dəyişsə belə, onların faşizm ideologiyası, xislətləri dəyişməz olur. Amma yenə də qalib tərəf ədalətə, beynəlxalq hüquqa əsaslanan, hec bir dövlətin torpağında gözü olmayan, humanizm prinsiplərinə söykənən ölkə, xalq olur.”

Baş redaktor ölkə Prezidentinin Vaqif Poeziya Günlərinin rəsmi açılışındakı nitqində yer alan bu mühüm məqama da xüsusi diqqət yönəldib ki, işğal dövründə həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, bu vəziyyətə düşməzdik. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü, səbirli olmaq lazımdır. Ədaləti bərpa etmək üçün isə yorulmadan çalışmaq, hədəfə doğru getmək gərəkdir. Bu gün hamımız deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi.

”Azərbaycan ədalətin bərpa olunması üçün 30 ilə yaxın səbir, dözüm nümayiş etdirdi, eyni zamanda, diplomatik üstünlük qazandı” söyləyən Vüqar Rəhimzadə vurğulayıb ki, ölkəmizin 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Qələbəsində də möhkəm hüquqi baza əsas rol oynadı: ”Azərbaycan Ordusu öz torpaqlarımızda döyüşdü, ərazi bütövlüyümüzü bərpa etmək, 30 ilin işğalına son qoymaq üçün mübarizə apardı, şəhidlərimizin canı, qanı bahasına Qələbəmizi qazandıq. Bu Zəfər Azərbaycanın 28 ildir dünyaya ünvanladığı çoxsaylı sualları da cavablandırdı. Dövlət başçısının da vurğuladığı kimi, danışıqlar prosesi 30 ilə yaxın davam etdi, heç bir nəticəsi olmadı.

”Postmünaqişə dövrünün reallıqları, ən əsası 30 illik işğal və İkinci Qarabağ müharibəsi dövründə beynəlxalq güclərin tutduğu mövqe onu göstərdi ki, bu məsələ heç vaxt danışıqlar yolu ilə öz həllini tapa bilməzdi. Çünki azərbaycanlıları bu vəziyyətlə barışdırmaq istəyir, dondurulmuş münaqişəni alternativsiz bir variant kimi təqdim etməyə çalışırdılar. Dövlətimiz isə ən yüksək tribunalardan Azərbaycan xalqının işğalla heç zaman barışmayacağını, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, ərazi bütövlüyümüzü müharibə yolu ilə bərpa edəcəyimizi bəyan edirdi. Beynəlxalq hüququn bütün norma və prinsipləri bu haqqımıza əsas verirdi. Azərbaycan 44 günlük Vətən müharibəsində BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına icra etdi, ədaləti bərpa etməklə illərdir onun yoxluğu barədə düşüncələrdə də dəyişikliyə şərait yaratdı. Bir daha təsdiqləndi ki, bütün münaqişəli məsələlərin həllində, həmçinin beynəlxalq münasibətlərdə güc və hüquq, ədalət əsasdır. Bütün sahələrdə böyük uğurlara imza atan, təcrübəsi nümunə olan Azərbaycan dünyanın hərb tarixinə yeni parlaq səhifə yazmaqla müharibə praktikasının, taktikasının öyrənilməsini də bir zərurətə çevirdi”,- deyə baş redaktor bildirib.

V.Rəhimzadə 30 ilin reallıqlarına qısa baxış fonunda böyük qürurla işğaldan azad edilən torpaqlarımızın, o cümlədən Şuşanın cənnət məkana çevrilməsindən də bəhs edib: ”Artıq Şuşa şəhərinin də baş planı təqdim edildi. Bu, Böyük Qayıdışa doğru növbəti addımdır. Şuşanın bərpasına dövlət başçısı İlham Əliyevin mədəniyyət paytaxtımıza ilk səfəri zamanı, yanvarın 14-də start verilmişdi. 8 ayda görülən işlərin, icra olunan layihələrin əhatə dairəsi genişdir. Azərbaycanın malik olduğu iqtisadi və maliyyə imkanları bu layihələri uğurla baş çatdırmağa əsas verir. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan qurtulmuş ərazilərimizə hər səfəri bərpa və quruculuq işləri ilə bağlı hədəfləri özündə ehtiva edən ”yol xəritəsi”nin ölkə ictimaiyyətinə, həmçinin dünyaya təqdimatında mühüm rol oynayır. Tarixlə müasirliyin vəhdəti fonunda aparılan bərpa və quruculuq işləri tezliklə Şuşamızı dünyanın ən gözəl şəhərlərindən birinə çevirəcək.”

# Sentyabrın 15-də dərslər açılır? Ekspertlər aydınlıq gətirdilər





“Ali təhsil müəssisələrində tədrisin təşkili artıq kifayət qədər ciddi problemə çevrilib. Çünki orta ümumtəhsil məktəblərində pandemiya dövründə tədrisin təşkili həftədə iki dəfə həyata keçirilsə də, ənənəvi təhsil bərpa edilsə də, ali təhsil müəsisələrində bu ciddi problem olaraq qalıb”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Onun sözlərinə görə, belə ki, ali təhsil müəssisələrimizdə təhsil alan tələbələrimiz 1 il 6 aydan çoxdur ki, məsafədən dərsdə iştirak edirlər: ”Bu da onların zəruri bilik əldə etməsinə ciddi şəkildə təsir göstərib. Xüsusən tibb və mühəndislik ixtisaslarında tələbələrin ciddi şəkildə problem yaşadığının şahidiyik. Digər tərəfdən bölgələrdə internet problemi, eyni zamanda tibb və mühəndislik ixtisaslarının öyrədilməsində müəyyən dərslərin keyfiyyətli olmaması hesab edirəm ki, birmənalı şəkildə tədrisə öz mənfi təsirini göstərir. Bütün bunları nəzərə alaraq biz mütləq şəkildə ənənəvi təhsilə qayıtmalıyıq. Amma burada da müəyyən qədər istisnalar olmalıdır. Ali təhsil müəssisələrində ixtisaslar üzrə əsas fənlərin ənənəvi qaydada keçirilməsi, ikinci dərəcəli fənlərin isə onlayn rejimdə keçirilməsi daha effektiv olar. Orta ümumtəhsil məktəbləri ilə bağlı məsələ isə biraz fərqlidir. Belə ki, bizim orta ümumtəhsil müəssisələrimizdə tədrisin təşkili 2020-ci ilin 15 senytabrında və 2021-ci ilin fevral ayında baş tutub. Biz orta ümumtəhsil məktəblərində tədrisi təşkil etmək vərdişlərinə sahibik. Amma burada müəyyən istisnalar var. İndiyə qədər 10 və 11-ci sinif şagirdləri tədris prosesində ənənəvi qaydada iştirak edə bilmirdilər. Bu da onların ali təhsil müəssisələrinə, eyni zamanda buraxılış imtahanının nəticələrinə təsirini göstərirdi”.

Mövzu ilə bağlı təhsil eksperti İlqar Orucov fikir bildirib: ”Ali təhsil müsəsisələrinin açılıb-açılmaması ilə bağlı hələ yekun bir qərar yoxdur. Hazırki dövrdə ölkəmizdəki vəziyyət heç də ürəkaçan deyil. Yoluxma sayı kifayət qədər artıb. Amma bir məsələ də var ki, biz koronavirusla yaşamağı öyrənməliyik. Türkiyədə ali təhsil müəssisələrinin açılması prioritetdədir. Baxmayaraq ki, orada həm insan sayı çoxdur, həm də yoluxma sayı günü-gündən artır. Amma artıq senytabrın əvvəllərində təhsil müəssisələrinin açılması məsələsi gündəmdədir. Düşünürəm ki, ən azı fərqli-fərqli ölkələrin bu istiqamətdə təcrübələri öyrənilməlidir. Biz çox istəyirik ki, bütün təhsil müəssisələri ənənəvi qaydaya qayıtsın. Amma çox təəsüf ki, vəziyyət ölkəmiz üçün yaxşı deyil. Əgər, vəziyyət yaxşıya doğru getsə, təhsil müəssisələrinin açılmasında bir problem olmayacaq”.

*Arzu Qurbanzadə*

# 50 mindən çox şəxsin işə cəlb edilməsi üçün proqram təkmilləşdirilir



Hazırda 56 min şəxsi əhatə edən ödənişli ictimai işlər proqramının təkmilləşdirilməsi tədbirləri aparılır. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasında deyilib.

Nazir bildirib ki, ödənişli ictimai işlərə cəlb olunanlar əsasən ilkin peşə hazırlığı olmayanlardır: ”Buna görə də onların proqram çərçivəsində bu və ya digər konkret peşə sahələri üzrə işlə təmin edilməklə həmin sahələrə aid ilkin peşə biliklərinə, bacarıqlara yiyələnmələrinə, beləliklə, bu bacarıqlar hesabına gələcəkdə müstəqil şəkildə öz işlərini qura bilmələrinə şərait yaradılması da hədəflərdən biridir”.

# Beynəlxalq məhkəmə erməniləri

***Soyqırımı bütöv bir insan qrupunun mövcudluq hüququnu tanımaqdan imtina etməkdir. Ayrıca bir insanın qətlə yetirilməsi (soyqırımı) ayrıca bir fərdin yaşamaq hüququnu tanımaqdan imtina kimi xarakterizə olunur. Azərbaycan parlamentinin erməni vandalizminin növbəti hissəsi olan Xocalı soyqırımının dünya parlamentləri tərəfindən tanıdılması istiqamətində fəaliyyətini qənaətbəxş hesab etmək olmaz. Çünki Xocalı soyqırımının tanıdılması üçün Azərbaycan parlamentində kifayət qədər komissiyalar, dostluq qrupları fəaliyyət göstərirlər.***







Mümkün deyilmi həmin qrup üzvləri gedib xarici ölkələrin parlamentlərində oturaraq, orada Xocalı soyqırımının tanıdılması istiqamətində iş aparsınlar. Dərinə getmədən yalnız onu demək olar ki, Azərbaycan parlamentinin Xocalı soyqırımının tanıdılması istiqamətində kifayət qədər imkanları və rıçaqları mövcuddur. Qeyd etmək lazımdır ki, ilk dəfə olaraq, 1965-ci ildə Uruqvay parlamenti qondarma "erməni soyqırımını tanıyıb. Yəni 95 illik mübarizə çərçivəsində ermənilər cəmi 26 ölkədə "erməni soyqırımı"nı tanıda biliblər. Azərbaycan parlamenti Meksika, Pakistan, Kolumbiya və İslam Əməkdaşlıq Təşkilatının parlamentindən başqa Xocalı soyqırımını tanıda bilməyib. 2011-ci il oktyabrın 24-də Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvü seçilməsi və 57-ci "Aurovision" musiqi yarışmasında Azərbaycanın qalib gəlməsi göstərdi ki, bizdə mübarizə əhval-ruhiyyəsi kifayət qədər yüksəkdir. Sadəcə, hədəfləri müəyyənləşdirmək və maraqları həyata keçirmək üçün səylər göstərmək lazımdır.

### Erməni xunta rejimi öz vəhşiliklərini etiraf edirlər

İngilis jurnalisti Tomas de Val "Qarabağ" kitabında konkret olaraq göstərir ki, Xocalı soyqırımının törədilməsi ilə bağlı Serj Sarkisyana sual etdikdə, o, Xocalı soyqırımını bilərəkdən törətdiklərini etiraf edib: "Serj Sarkisyan dedi ki, azərbaycanlılar elə bilirdi ki, zarafat edirik, biz Xocalıda heç bir cinayət törətməyəcəyik. Amma biz azərbaycanlılara sübut etdik ki, bunu bacarırıq". Azərbaycanlılara qarşı soyqırımı həyata keçirən S.Sarkisyanın hakimiyyətə gətirilməsində Rusiya maraqlı olub. Burada da Türkiyənin ən böyük səhvi o oldu ki, S.Sarkisyana futbol diplomatiyası ilə hüquqi status verdi. Gərək Türkiyə əli minlərlə azəri türkünün qanına batan S.Sarkisyanı bir dövlət başçısı kimi tanımayaydı. Azərbaycanlılara qarşı soyqırımı və terror aktları törədən 30 erməni hazırda axtarışdadır. Onların arasında işğalçı ölkənin dövlət başçısı S.Sarkisyanın və müdafiə naziri Seyran Ohanyanın da adları var. Hesab edirik ki, Sarkisyan kimi cinayətkarların cəzasız qalmamaları üçün Türkiyə də Xocalı soyqırımını rəsmən tanımalıdır. Bundan sonra beynəlxalq məhkəməyə müraciət edilməlidir ki, Xocalı faciəsi soyqırımı kimi tanınsın. Xocalı soyqırımının dünya dövlətləri tərəfindən tanıdılması istiqamətində aparılan təbliğat informasiya müharibəsi səviyyəsindən çıxaraq hüquqi müstəviyə keçməlidir. 1988-ci ildə ermənilərin Topxana meşəsində ağacları kəsmələri Azərbaycan xalqının birləşməsinə təkan oldu. Ümumi şəkildə desək, Topxana xalqı bir bayraq altına toplamışdır. Hakimiyyətdə olanlar xalqla birləşməkdənsə, Moskvaya qucaq açmağa üstünlük verdi. Kamran Bağırovun Azərbaycana rəhbərlik etdiyi illəri durğunluq illəri kimi dəyərləndirmək olar. Əsas siyasi proseslər Ə.Vəzirovun və A.Mütəllibovun hakimiyyətdə olduqları illərdə cərəyan edib. O zaman Sovet İttifaqının dağılması qaçılmaz idi. Ə.Vəzirov və A.Mütəllibov Moskvadan tamamilə asılı idilər. Ə.Vəzirov Azərbaycan dilini bilməyən xalqından ayrı düşmüş bir şəxsi idi ki, Moskva onu Azərbaycan MK-nın birinci katibi qoymuşdur. Əsasən, o, bir növ canişin kimi fəaliyyət göstərirdi. Əbdürrəhman Vəzirovun ən böyük bağışlanmaz səhvi onda ibarət idi ki, o, Ermənistandan qovulan 200 min azərbaycanlını Dağlıq Qarabağda deyil, Bakıda məskunlaşdırdı. Hansı ki, bu insanlar Ermənistanın dağlıq zonasında yaşamış və kənd təsərrüfatı ilə məşğul olan insanlar idi. Onları Dağlıq Qarabağda yerləşdirməklə orada demoqrafik vəziyyəti gücləndirmək olardı. Əgər 200 min qaçqın və məcburi köçkün Dağlıq Qarabağda məskunlaşardısa, oradakı bütün situasiya kökündən dəyişə bilərdi. Bununla da sonrakı münaqişələrin, həm də torpaqların işğalının qarşısını almaq olardı. Ermənilər qarşılarında 200 minlik güclü qüvvə görəcəkdirlər. Hansı ki, bu 200 minlik qüvvədə ermənilərə qarşı nifrət və qəzəb var idi. Onlar daha böyük qətiyyət və mübarizliklə vətənlərini qoruya bilərdilər. Ancaq onlar paytaxta gətirildi. Bununla da Bakıda daxili situasiya gərginləşdi. Bu azmış kimi Ə.Vəzirov heç bir siyasi iradə göstərmirdi, Moskvanın diktəsi altında idi. Xalqdan ayrı düşməkdənsə xalqın önünə çıxıb, ümumi düşmənə qarşı birləşməklə Dağlıq Qarabağ kimi fəlakətin qarşısını almaq olardı. Həm də 20 Yanvar faciəsi də baş verməzdi. 20 -ci əsrin ən dəhşətli soyqırımı olan Xocalı genosidi də törədilməzdi. Ə. Vəzirovun dövründə qoyulan fundament Ayaz Mütəllibovun hakimiyyəti dövründə daha da dərinləşdi. Nəticədə, 20 Yanvar və Xocalı faciələri baş verdi. Qafqazda imperiyalar və ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi 1991-ci il noyabrın 20-də Martuninin azərbaycanlılar yaşayan kəndlərinə uçan nümayəndə heyətini aparan vertolyot Qarakənd üzərində terrora məruz qalır. Azərbaycanın dövlət katibi Tofiq İsmavılov, baş nazirin müavini Zülfü Hacıvev, dövlət müşaviri Məhəmməd Əsədov, baş prokuror İsmət Qavıbov, prezidentin mətbuat katibi Osman Mirzəvev, dövlət-hökumət xadimləri Vaqif Cəfərov, Vəli Məmmədov, Qurban Namazəlivev, DQMV hüquq-mühafizə, təhlükəsizlik orqanlarına başçılıq edən rusiyalı generallar daxil olmaqla 20-dən çox adam həlak olur. Bütün bunlar A.Mütəlibovun dövlət idarəetməsində yol verdiyi səhvlərinin acı faciəvi nəticələri olmuşdur. A.Mütəllibovu devirib, hakimiyyəti zəbt edən AXC iqtidarı da Azərbaycana yalnız uğursuzluqlar gətirdi. Qonşu dövlətləri hədələmələri regionda ölkəmizin təklənməsinə gətirib çıxartdı ki, bunun da acı fəsadlarını Azərbaycan xalqı yaşamalı oldu. Azərbaycanın dövlət olaraq özünütəsdiqi və problemlərinin həlli yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra həll edilməyə başladı. Ümummilli liderin apardığı məqsədyönlü, müdrik siyasət nəticəsində Azərbaycan qurtuluşundan həlledici dönüşə qədəm qoydu. Hələ 1969-cu ildə Heydər Əliyev Azərbaycan SSR-nin MK-nin birinci katibi seçiləndən respublikamızın inkişafının əsası qoyulmuşdur. Həyatın bütün sahələrində geniş islahatlar proqramlarının həyata keçirilməsi nəticəsində respublikamız aqrar respublikadan sənaye bölgəsinə çevrildi. Dahi Öndər respublikamızın inkişafı, xalqımızın rifah halının yaxşılaşdırılması üçün zəruri olan ən vacib məsələlər barədə əvvəlcə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur, sonra da bütün xalqımızı həmin qərarların icrasına səfərbər edirdi. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək onun planlarının başında gəlirdi. Buna da nail olundu. İttifaq respublikaları arasında yalnız Azərbaycan və Rusiya özü-özünü təmin edən respublika olmuşdur. Bir sözlə, Vətənimizin müstəqilliyə gələn yolunu hələ o zaman Heydər Əliyev başlamışdı. 1970-1985-ci illərdə bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Uzaqgörən siyasət xalqımızda milli qürur, milli mənlik şüurunun, azadlıq, müstəqillik duyğularının oyanmasına hesablanmışdır. Bu, əslində, 1970-ci illərdə Azərbaycan xalqının milli azadlıq mərhələsinə daxil olması demək idi. 1987-ci ilin əvvəlində başlayan milli azadlıq hərakatı göstərdi ki, Heydər Əliyevin işləyib hazırladığı azadlıq mübarizəsi konsepsiyası düzgün və əsaslı imiş. Təəssüf ki, sonradan xalqın önünə keçən insanlar hazır konsepsiyanı düzgün istiqamətləndirə bilmədilər. Daha doğrusu, yaranan fürsətdən öz mənafeləri üçün istifadə etməyə üstünlük verdilər. Hakimiyyətə yiyələnsələr də, təşkilatçılıqda və idarəetmədə bacarıqsızlıqları nəticə etibarilə yenicə müstəqillik qazanmış Azərbaycana acı faciələr yaşatdı. Xalq Cəbhəsinin hakimiyyəti dövründə davam edən çəkişmələri respublikanın müdafiəsinə ağır zərbə vurdu. 1993-cü ilin aprelin 1-də Kəlbəcər işğal olundu. İyun ayında korpus komandiri Surət Hüseynovun Gəncədə hakimiyyətə qarşı qiyam qaldırması Azərbaycanda dərin siyasi böhranın yaranmasına gətirib çıxardı. Xaos və anarxiya fonunda cənubda "Talış- Muğan Respublikası"nın, şimalda "Sadval"çıların meydana çıxmasına gətirib çıxartı. Bundan istifadə edən ermənilər ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Belə ağır dönəmdə xalq üzünü ULU Öndər Heydər Əliyevə tutub, ondan kömək istədi. Xalqın tələbi ilə Dahi Öndər Heydər Əliyev hakimiyyətə gəldi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Dahi Öndər apardığı müdrik siyasi gedişlər hesabına ölkədə vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Vəziyyəti düzgün qiymətləndirən Ulu Öndər Heydər Əliyev müdrik strateq kimi real vəziyyətdən çıxış edərək cəbhədə atəşkəs rejiminə nail oldu. Məhz bundan sonra ordu quruculuğuna, hərbi qüdrətin artırılmasına başlanıldı. Beynəlxalq aləmdə Azərbaycanın yeri və rolu möhkəmləndi, xalqın sabaha olan inamı özünə qaytarıldı. Millətimizin adı və dili, qüdrətimizin və vahidli-

# ...ri vəhşi xalq kimi tanıya bilər




yimizin əsası olan islam-türk birliyi bərpa olundu. Bu gün müstəqil Azərbaycan bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanmışdır. Ulu Öndər Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biridir və beynəlxalq aləmdə Vətənimizə böyük hörmət qazandırır. Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrilmişdir. Azərbaycan dünyanın iqtisadi mərkəzinə çevrilməkdədir.

## NİYƏ DÜNYA "ASALA" VƏ "DAŞNAKSÜTYUNU" TERROR TƏŞKİLATI KİMİ TANIMIR?

1999-cu ildə ABŞ "PKK"-nı terror təşkilatı kimi tanısa da, Türkiyənin bu məsələ ilə bağlı hələ də qərar verməməsi təəccüb doğurur. Türkiyənin bu məsələlərdə qərarsız olması obyektiv səbəblərlə əlaqələndirilir. Səbəblərdən biri kimi ekspertlər onu göstərirlər ki, beynəlxalq aləmdə terrorizmin vahid tərifi yoxdur. Bizim üçün terrorçu olan təşkilat, digərləri üçün milli qəhrəman, xalqının və dövlətinin xilaskarı kimi təqdim olunur. Terrorizmlə bağlı 120-yə qədər müxtəlif məzmunlu təriflər olsa da, vahid, hər kəs tərəfindən qəbul olunan universal mövqe yoxdur. Misal kimi ABŞ və Qərb ölkələri Bin Ladeni ən qorxulu terrorçu kimi tanısa da, ərəb dövlətlərinin xalqları onu milli qəhrəman kimi qəbul edib, dəyərləndirirdilər. Məhz bu amili nəzərə alan ABŞ bin Ladeni öldürdükdən sonra onun fiziki bədənini dənizdə basdırmağa üstüniük vermişdir. Çünki ABŞ ehtiyat etmişdir ki, insanlar onun məzarını ziyarətə çevirməklə ona göz dağı vermiş olarlar. Eləcə də "Daşnaksütyun" və "ASALA" terror təşkilatları Ermənistan hakimiyyətinin maraqlarını ifadə etdiklərindən bu təşkilatlar onlar üçün qəbul olunandır. Hətta Ermənistanda "Daşnaksütyun" və "ASALA" terror təşkilatlarının üzvləri parlamentdə, eləcə də, hakimiyyətdə təmsil olunurlar. Görünür, Türkiyə də bu amilləri nəzərə alaraq sözügedən təşkilatları terrorçu təşkilatlar kimi tanımaqdan çəkinir. Bugünkü reallıq ondan ibarətdir ki, Türkiyənin dünyada rolu kifayət qədər möhkəmlənib. Türkiyənin xirici işlər naziri Əhməd Davudoğlu bəyan etdi ki, "Ərəb baharı" 20 il əvvəl olsaydı, Türkiyə bu məsələlərə qarışmazdı və bunu o ölkələrin daxili işi kimi dəyərləndirərdi. Amma indi dövr və zaman dəyişib, Türikiyə bu proseslərin içindədir. Yəni kənardan müşahidə etmir. O dövlətlərdə Türkiyənin maraqları cəmləşib və orada birbaşa iştirak edir. Bu gün Türkiyə iqtisadi baxımdan Avropada 6-cı dövlətdir. "Böyük İyirmilik"də 16-cıdır. Hərbi potensialına görə Türkiyə NATO-da ABŞ-dan sonra ikinci ölkədir. ABŞ-ın 1,4 milyon, Türkiyənin isə 720 min nəfər hərbçisi var. Etiraf olunmalıdır ki, ABŞ fövqəldövlətdir. Onların siyasətində yanaşma ondan ibarətdir ki, bir regionda maraqlarını həmin regionun lider dövləti vasitəsi ilə təmin edir. Yaxın və Orta Şərq ABŞın həyatı maraqlarına daxildir. Bu zonadakı maraqlarını həyata keçirmək üçün Türkiyənin potensialından faydalanır. Regionda Türkiyənin dəstək vermədiyi heç bir layihə və plan baş tuta bilməz. Bu nöqteyinəzərdən ABŞ Türkiyəyə bu və digər formada təzyiqlər edə bilir. Bunun üçün kürd və "erməni soyqırımı" məsələsindən rəsmi Ankaraya qarşı təzyiq vasitəsi kimi istifadə edir. Eyni zamanda, ABŞ onun fərqindədir ki, regionda siyasətinin uğuru Türkiyənin "hə" deməsindən çox asandır. Xüsusilə də, ABŞ özünün Cənubi Qafqaz və Mərkəzi Asiya siyasətində məqsədlərinə nail olmaq üçün Türkiyə faktorundan son dərəcə asılıdır. Türkiyənin də bu regionda özəl maraqları var. Ona görə də hər iki dövlətin bu regionla bağlı maraqları üst-üstə düşür. Türkiyəyə qarşı ittiham irəli sürmək olar ki, bu ölkə dost, qardaş ölkə dediyi Azərbaycamn torpaqlarının işğaldan azad edilməsi üçün fövqəl dövlət olan ABŞ-ın qarşısında niyə tələblə çıxış etmir. Düzdür, Türkiyə Ermənistanı işğalçı dövlət olaraq tanıyır. Türkiyənin Ermənistanla iqtisadi-siyasi əlaqələri yoxdur. Amma Türkiyənin 1918-ci ildə olduğu kimi, 1990-cı ilin əvvəllərində də Azərbaycan xalqının yanında olub, ermənilərin Dağlıq Qarabağda kütləvi insan qətliamlarının qarşısını ala bilərdi. Bu, baş vermədi. Əksinə, Türkiyə ABŞ-ın təzyiqi ilə Ermənistanı buğda və digər ərzaq məhsulları ilə təchiz etdi. Bunu biz yox, Türkiyənin o zamankı xarici işlər naziri olmuş Hikmət Çətin "Kanal D"- yə müsahibəsində bildirib: "Türkiyə prezidenti Süleyman Dəmirəlin tapşırığına əsasən, Azərbaycan prezidenti Əbülfəz Elçibəylə əlaqə saxlayıb, məsələ ilə bağlı onun fikrini öyrənməyə çalışdım. Elçibəy ona bu insanlıq məsələsi olduğu üçün etiraz etmədiklərini söyləyib. Nəticədə, Avropa Birliyi Ermənistanı taxılla təmin edənə qədər Türkiyə Ermənistana ilkin olaraq 5 min ton taxil göndərib." Yerevanın Ermənistanın paytaxtı olmasında da müəyyən qədər Türkiyənin günahı var. Çünki Türkiyə Gümrünü işğal altında saxlamasaydı, ermənilər Aleksandropolu (Kümrü nəzərdə tutulur-) özlərinin paytaxtı elan edərdilər. Azərbavcanın Türkiyəyə müraciət etməsinə baxmayaraq, Türkiyə buna əhəmiyyət vermədi. "Sever" müqaviləsində də Türkiyə bilavasitə Azərbaycanın maraqlarına qarşı çıxıb, öz maraqlarını açıq şəkildə ölkəmizin maraqlarından üstün tutub. Bir sözlə, Türkiyə Azərbaycanın maraqlarını nəzərə alınmadan Ermənistana qayğı göstərib. Acı da olsa, bu, Türkiyənin dost-qardaş dediyi Azərbaycana real münasibəti olub. Bu halda 1921-ci ildə imzalanan "Qars müqaviləsi" də Türkiyə üçün kağız parçasına çevrildi. Əslində isə, "Qars müqaviləsi"nə görə, Türkiyə Naxçıvanın təhlükəsizliyinə yardımçı olmalıdır. Müqaviləyə görə, əgər Naxçıvanın ərazi bütövlüyünə, suverenliyinə təhlükə yaranarsa, Türkiyə onun qarşısının alınması istiqamətində tədbirlər görməlidir. Ermənistan da bunun fərqindədir. Amma bu, bir həqiqətdir ki, "Qars müqaviləsi"nin olmasına baxmayaraq, Naxçıvanın Kərki kəndi ermənilər tərəfindən işğal olundu, Sədərək intensiv atəşə məruz qaldı. Lakin Türkiyə susdu. "Qars müqaviləsi"nə görə isə, Türkiyə adekvat addımlar atmalı idi. O düzdür ki, Türkiyə cavab tədbirləri görərdirsə, o zaman Türkiyə Rusiya ilə baş-başa gələ bilərdi. Bu isə sonu proqnozlaşdırılmayan müharibəyə gətirib çıxarardı. Çünki NATO-nun nizamnaməsinin 5-ci maddəsinə görə, quruma üzv dövlətlər üzləşdikləri müharibə şəraitində bir-birini müdafiə etməlidir. Belə vəziyyətdə NATO dövlətləri Türkiyəyə təh did edərdilər ki, bir kəndin işğalına görə, Rusiya ilə konfliktə getməyə ehtiyac yox idi. Qısası, təzyiqlərdən çəkinən Türkiyə



Azərbaycana dəstək verməkdən bir növ qorxdu. İndinin özündə də Türkiyə Azərbaycana dost və qardaş ölkə deməkdən uzağa gedə bilmir. Çünki hərbi arsenalına görə NATO-da ikinci olan rəsmi Ankara Ermənistanı məhv etməyə cəhd göstərərsə, o zaman qurumun digər 27 ölkəsi də Türkiyə ilə bir sırada olmaq məcburiyyətində qalacaqdır. Nəticədə, Rusiya müharibəyə qoşulmalı olacaq. Bu isə regionda yeni qlobal bir müharibə ocağının yaranmasına gətirib çıxaracaq. 1991-ci ildə SSRİ dağıdıldı və Rusiya varis olaraq imperiyanın imkanlarına yiyələndi. Bu, elə bir vaxta təsadüf edirdi ki, Rusiyada xaos və anarxiya, hakimiyyətsizlik baş alıb gedirdi. Yüksək vəzifəli dövlət rəsmilərinin hər biri özünü prezident, ali baş komandan hesab edirdi. Belə vəziyyətdə kim təminat verə bilərdi ki, Rusiya prezidenti Yeltsin və ya Qorbaçov kimi generallar hegemonluq iddialarının hələ də tükənmədiyini nümayiş etdirmək üçün NATO dövlətlərinə qarşı atom bombasından istifadə etməsinlər. O vaxt cəmi iki nəfərin Azərbaycanda Türkiyənin maraqlarını həyata keçirməyə cəhd göstərdiyi iddia olunur. Onlardan biri Tansu Çillər, digəri isə Məsud Yılmaz idi. ABŞ-ın fəal müdaxiləsi ilə onların hər ikisini siyasətdən sildilər. O zaman Turqut Özal Azərbaycanın maraqlarından çıxış edərkən Dağlıq Qarabağ probleminin həllinə səylər göstərirdi. Amma bu da ona müvəffəq olmadı. Məhz 1993-cü il aprel ayının 15-də Azərbaycana səfərindən Türkiyəyə dönməsindən iki gün sonra qəflətən öldü. Bu günə qədər də hər kəs gözəl bilir ki, onu zəhərləyib öldürdülər. Əvvəl Azərbaycana kölgə salmaq istədilər. Bu alınmadıqda isə, zəhər faktını etiraf etdilər. O zaman Turqut Özal məsələni kəskin qoymuşdu. O, ABŞ-da təhsil aldığına görə, rəsmi Vaşinqtonun siyasətini çox gözəl bilirdi. Turqut Özal Dağlıq Qarabağ probleminin Azərbaycanın maraqları çərçivəsində həllinə nail ola biləcəkdi. O zaman Dağlıq Qarabağ tam itirilməmişdir. Yalnız Şuşa və Laçın işğal olunmuşdu. Turqut Özal ABŞ qarşısında Azər-



baycanın torpaqlarının işğaldan azad edilməsi məsələsini qoymuşdur. Burada ABŞ ilə Rusiyanın maraqları üst-üstə düşdüyündən, Turqut Özal aradan götürüldü.

Corc Filitmanın "Növbəti 100 il" kitabı çapdan çıxıb. Həmin kitabda Rusiyanı dağıtmaqdan ötrü 3 dövlətdən - Polşa, Yaponiya və Türkiyədən istifadə planı olduğu qeyd olunub. Yəni ABŞ Türkiyəyə böyük önəm verir. Bu gün həm Rusiyaya, həm də ABŞ-a Qarabağ məsələsi lazımdır ki, onlar Azərbaycanı əldə saxlasın. İndiyə qədər Qarabağ probleminin həll olunmamasının səbəblərindən biri də ondan ibarətdir ki, Birləşmiş Ştatlarla RF dünyanı bölüşdürməklə bağlı razılığa gələ bilməyiblər. Bütün bunlar faktdır. Bizim tarixçilərimiz isə bu məsələni işıqlandırmaqdan qaçırlar.

**İ.ƏLİYEV**

# Mirzoyanın xəstəliyi, Lavrovun eyhamı, Bakının səbri...

*Rusiyada olan Ermənistanın yeni XİN rəhbəri Ararat Mirzoyan Rusiyadan olan həmkarı Sergey Lavrovla görüşündə deyib: "Hazırkı mərhələdə sülh razılaşması ilə bağlı heç bir danışıqlar aparılmır. Əgər nə vaxtsa danışıqlar aparılacaqsa, onda Dağlıq Qarabağın statusu məsələsi mütləq Minsk qrupunun həmsədrləri tərəfindən müəyyən edilmiş əsaslarla aparılmalıdır".*


Vladimir Gerdo (TASS)

Rusiya XİN başçısı Lavrov isə ehtiyatla və taktiki şəkildə eyham vurub ki, yaxşı olardı Azərbaycan xoşməramlı addıma getməklə erməni diversantlarını Ermənistana geri versin...

### Lavrovun "nə şiş yansın, nə kabab" xarakterli ifadəsi

Lakin Lavrov növbəti dəfə vurğulayıb ki, bu duversantların noyabrın 10-da qəbul edilmiş üçtərəfli bəyanata heç bir aidiyyatları yoxdur. Belə ki, erməni diversantları həmin bəyanatdan sonra Azərbaycanın ərazisində silahlı müqavimət göstərməyə çalışaraq kirli təxribatçılıq əməllərini reallaşdırmaq istəyiblər. Yəni Lavrov ikibaşlı fikir irəli sürərək, "nə şiş yansın, nə kabab" ifadəsi əsasında eyham vurub və bu baxımdan da deyib ki, ermənilərin Azərbaycanın üçtərəfli bəyanatdakı 8-ci bəndə əməl etməməsi iddiaları əbəsdir. Ona görə də ermənilər çox da "zad" eləməsinlər...

SİYASİ RAKURS+ÖZƏL

### Bu kimi psixlər ayrı dildə danışmağı qanmırlar, anlamırlar

Qayıdaq Ararat Mirzoyanın bəyanatına və bu dəfə belə bir nəticəyə gələk ki, Ermənistan sanki bir manyak, yaxud özünə əzab verməyi sevən psix xarakterindədir və növbəti dəfə Azərbaycanın təpikləri altında qalaraq bundan həzz almaq arzusundadır. Artıq dəfələrlə sübuta yetirilib ki, bu kimi psixlər ayrı dildə danışmağı qanmırlar, anlamırlar.

Baxın, Ararat Mirzoyan əvvəlki XİN rəhbərlərindən fərqli olmayaraq status barədə hürür, üstəlik Azərbaycanın Ermənistanın suverenliyini pozduğunu (?!) iddia edir. Beləliklə, Ermənistan hakimiyyətinin diaqnozu eynidir: pasient ümidsiz ölüdür. Onunla hər hansı danışıqlar aparmaq isə ümumiyyətlə mənasızdır.

### Ən sadə çıxış yolu!

Sadəcə, ya sülhməramlıların qalma müddətini gözləmək, yaxud da onları üçtərəfli bəyanat əsasında 6 ay əvvəldən xəbərdar edib, birtərəfli şəkildə ərazilərimizi duzçörəklə, üzüsulu qaydada tərk etməyə, evlərinə geri dönməyə dəvət etmək lazımdır.

Və ən əsası, Qarabağda antiterror əməliyyatlarına başlamaqla problemi kökündən həll etmək olar. Hətta rus sülhməramlıları burada ola-ola da. Məsələn, sual edilə bilər ki, necə olur, qanunsuz erməni silahlı birləşmələri rusların burunlarının dibindən bizə atəş açır, təxribatlar törədirlər, hərbçimizi əsir götürüb mühakimə edirlər, biz isə haqqımız, hüququmuz ola-ola düşmənin yerdə qalan hissəsinin başını ilan başı kimi əzibsona çatdırmırıq?! Çünki bu, ən sadə çıxış yoludur!

Düzdür, bunu etməməklə daha çətin variantları, vasitələri də icra etmək mümkündür. Misal üçün, Rusiya sülhməram(sız)larının məsul olduqları ərazilərə iqtisadi təsirlər göstərib, təzyiqləri artırmaq. Hələlik, Azərbaycan səbrlə, təmkinlə ikinci variantı tətbiq edir.

**Rövşən RƏSULOV**

**P.S.** Yeri gəlmişkən, separatçı xunta rejimi artıq bir həftədən çoxdur ki, ruhi xəstə olan hərbçimizi Rusiya sülhməram(sız)larının məsul olduqları bölgədə saxlayır, mühakimə edir və s. Ruslar isə həmin situasiyanı müşahdə edirlər, niyə əcəba? Beləliklə, bütün bunlar əlbəttə ki, cənab Müzəffər Ali Baş Komandanımızın da vurğuladığı kimi - Bakı tərəfindən qeydə alınır və tezliklə də cavab veriləcək, TEZLİKLƏ!

# Bu il şəhid ailələri və müharibə əlilləri üçün çoxmənzilli yaşayış binaları təqdim olunacaq



*Şəhid ailələri və müharibə əlilləri üçün bu ilin sonunadək daha bir neçə çoxmənzilli yaşayış binaları təqdim ediləcək. 2021-ci il üzrə onlara ümumilikdə 3 minədək mənzil və fərdi evin verilməsi təmin olunacaq, onlardan 1600-ü verilib. Bu fikir Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasında vurğulanıb.*

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev vurğulayıb ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə bu il avqustun 26-da şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillər və avtomobillərin təqdim olunması ölkəmizdə bu kateqoriyalardan olan vətəndaşlara ən yüksək səviyyədə diqqət və qayğını ifadə edir. Dövlət başçısının tapşırığı ilə şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramının genişləndirilməsi işləri davam edəcək.

Qeyd olunub ki, 2019-2021-ci illərdə nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir olunaraq yenidən qurulmuş, ən müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilib. Bu ilin sonunadək Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Qəbələ və Şəmkirdə Uşaq Reabilitasiya Mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulur.

İclasda əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi, yeni sosial obyektlərin tikintisi, habelə yeni DOST mərkəzlərinin yaradılması sahəsində aparılan işlər müzakirə olunub. "DOST İŞ Mərkəzi" tərəfindən görülən işlər nəzərdən keçirilib.

Bildirilib ki, hazırda 56 min şəxsi əhatə edən ödənişli ictimai işlər proqramının təkmilləşdirilməsi işləri aparılır. Ödənişli ictimai işlərə cəlb olunanlar əsasən ilkin peşə hazırlığı olmayanlardır. Buna görə də onların proqram çərçivəsində bu və ya digər konkret peşə sahələri üzrə işlə təmin edilməklə həmin sahələrə aid ilkin peşə biliklərinə, bacarıqlara yiyələnmələrinə, beləliklə, bu bacarıqlar hesabına gələcəkdə müstəqil şəkildə öz işlərini qura bilmələrinə şərait yaradılması da hədəflərdən biridir.

İclasda Nazirliyin Daxili nəzarət və audit şöbəsinin, Nazirliyin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın fəaliyyətinə dair hesabatlar da dinlənilib, görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

# "Ermənistan anlamalıdır ki, Azərbaycan öz ərazisində istənilən vaxt hərəkəti məhdudlaşdıra bilər"

Gorus-Qafan yolunun Azərbaycan ərazisindən keçən hissəsində hərəkətin məhdudlaşdırılması Ermənistan tərəfini çox ciddi narahat etməyə başlayıb. Lakin yolun Azərbaycan hissəsində istər hərəkətin məhdudlaşdırılması, istərsə də sərhəd-nəzarətinin tənzimlənməsi Azərbaycanın suveren hüququdur. Ona görə də ölkəmiz istənilən vaxt lazımı tədbirləri həyata keçirməkdə tam sərbəstdir.



Bəli, indiyə qədər Ermənistan bu yoldan heç bir maneəsiz istifadə edib. Lakin bu, yalnız Azərbaycanın xoş niyyətindən, humanist yanaşmasından qaynaqlanıb. İndi isə belə bir vəziyyətin yaranması məhz Ermənistanın məsuliyyətsizliyinin və Azərbaycana qarşı hər daim təxribatlara əl ata biləcəyinin nəticəsidir. Necə ki, 3 gün öncə Gorus-Qafan yolunun Qubadlı rayonunun Aşağı Cibikli kəndi yaxınlığından keçən hissəsi istiqamətində yerləşən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının xidmətdə olan əsgəri Şirəliyev Ruslan Nəriman oğlu Ermənistan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusunun qəfil hücumuna məruz qaldı. Orada əlbəyaxa döyüş zamanı əsgərimiz sinə nahiyəsindən süngü bıçaqla xəsarət aldı.

Baş vermiş bu hadisəyə görə bütün məsuliyyət Ermənistan tərəfinin üzərinə düşürdü və bu təxribata adekvat cavab veriləcəyi mütləq idi. Belə də oldu. Azərbaycanlı sərhədçiyə edilən bu hücumdan sonra Azərbaycan ərazinin təmizlənməsi üçün lazımi əməliyyat tədbirləri gördü və hərəkətin tənzimlənməsi üçün lazım olan addımları atdı. Eləcə də bu məsələdə qəti iradə ortaya qoyularaq konkret şərtlər irəli sürüldü.

Bu arada Ermənistanın baş naziri dünən hökumətin iclasında çıxışı zamanı ermənilər təəccüblədirdi. O, əvvəlki çıxışlarından fərqli olaraq ənənəvi şəkildə yaşayış məntəqələrinin adlarını ermənicə Karmrakar və Şurnux deyil, Eyvazlı və Çayzəmi kimi Azərbaycan adlarını səsləndirdi. "Eyvazlı və Çayzəmi hissələrində yolun açılması regional sabitliyin çox yaxşı simvoluna çevrilə bilər" - deyə, N.Paşinyan çıxışı zamanı bildirdi.

Bununla Paşinyan, əslində, yolun Azərbaycan tərəfindən məhdudlaşdırılmasından ciddi narahatlıq keçirdiyini, amma yalvarırmış kimi, bunu çox yumşaq şəkildə ifadə etdi.

Paşinyanın bu çıxışı ilə bağlı erməni politoloq Stepan Danielyan isə "Azərbaycan Ermənistandan iki kənd də daxil olmaqla, Gorus-Qafan yolunun 21 kilometrini Azərbaycan ərazisi kimi tanıdığını rəsmən bəyan etməsini tələb edib. Tələb isə yerinə yetirilib. Baş nazir Paşinyan hökumətin iclasında bildirdi ki, 21 kilometr Azərbaycan ərazisidir. Eyni zamanda, o, iki kəndin Azərbaycanca olan adlarını çəkib" - deyə, reaksiya verdi.

Beləliklə, Ermənistan artıq anlamalıdır ki, Azərbaycan istənilən an öz ərazisində hərəkəti məhdudlaşdırmaq hüququna malikdir. Bu zaman ermənilər Ermənistanın yol-hərəkəti sisteminin iflic vəziyyətə düşə biləcəyini də unutmamalıdırlar.

***Trend***

# Türkiyənin hərbi və xarici siyasəti: Ankara söz sahibinə çevrilib

**Qərb itirdiyi rıçaqlarının Türkiyə cinahına keçməsini həzm edə bilmir və dünyanın yeni güc balansı reallığının Ankaranın ətrafında möhkəmləndirilməsinin qarşısını hər vəchlə almağa çalışır**

Türkiyənin hərbi siyasətini analiz edənlərin əksəriyyəti bu siyasətin əsasını anlamadan baş verənləri daxili ideoloji xaltoplama cəhdləri kimi dərk edirlər. Misal üçün, bir sıra hallarda Qərb ölkələrinin mətbuatı Ankaranın sərt və qətiyyətli siyasi iradəsinə təsir göstərmək üçün onu "avantüraçı, islamçı, neoosmanlı" yarlıqları ilə "bəzəyir", məhz belə təqdim etməyə cəhdlər göstərirlər. Bəzən də Qərb KİV-ləri ritorik şəkildə Türkiyənin regional və dünyəvi siyasətinə xitabən "Onlar oralarda nə yaddan çıxarıblar?" tipli suallar edərək, Ankaranın Suriyada, Liviyada, İraqda, Afrika ölkələrində və Qarabağda göstərdiyi hərbi-siyasi aktivliyindən əslində ciddi narahatlıq keçirdiklərini gizlətmirlər. Hətta bir az da irəliyə gedərək, Türkiyəni "imperialistlərin subpodratçısı" belə adlandırırlar.

Lakin bu da son deyil. Ankaranın Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanı ilə münasibətlərini normallaşdırması, Qətərlə yüksək səviyyədəki əməkdaşlığı da Qərb siyasi dairələrinin narahatlıqlarını açıq-aşkar büruzə edir.

Bu gün Qərb yavaş-yavaş itirdiyi rıçaqlarının Türkiyə cinahına keçməsini həzm edə bilmir və dünyanın yeni güc balansı reallığının Ankaranın ətrafında möhkəmləndirilməsinin qarşısını hər vəchlə almağa çalışır. Həmin faktor isə artıq kifayət qədər sübut edir ki, Ankaranın xarici (həmçinin hərbi) siyasəti çoxşaxəlilik prinsipinə söykənir və artıq bu siyasətin qarşısının alınması qeyri-mümkünlüyə çevrilməkdədir.

GEOSİYASƏT-ANALİTİKA




## Sərt və yumşaq siyasət - hədəflər bəllidir

Digər tərəfdən, Türkiyə son illərdə qlobal miqyasda fəaliyyət göstərən əsas simaya çevrilib. Bir sıra sahələrdə özünün sərt gücünü göstərən qardaş ölkə müdafiə sənayesindəki və ticarətdəki sıçrayışlarını da öz qətiyyətlə etdirməkdədir.

Lakin Ankaranın sərt siyasəti ilə yanaşı, yumşaq siyasəti də mövcuddur və yumşaq siyasətin uğurları ilə digər yöndəki sahələrində qətiyyətlilik nümayiş etdirən Türkiyə qlobal gücünü artırmağa müyəssər olur. Yumşaq siyasətə isə TİKA, YTB, TRT, Maarif kimi amilləri göstərmək olar. Məhz bu faktorlar davamlı partnyorluq və münasibətlərdə müsbət nəticələr əldə edilir.

Biznes investisiyaları isə prezident Rəcəb Tayyib Ərdoğanın xarici siyasətdəki addımları ilə ölçülə bilər. Türkiyənin investisiyalar yatırdığı ölkələrə səyahət edərkən Ankaranın uğurlarını görməmək olmur. Türkiyənin yeni aktiv rolu regiondan və daxilindən daha çox xarici mühitdə aydın görünməkdədir. Əlbəttə ki, bu reallıq Ərdoğanın müahir siyasətçi, diplomat olması, qətiyyətli liderlik keyfiyyətləri və s. üstünlükləri ilə əlaqələndirilir.

## İstiqamət Balkanlara və Mərkəzi Asiyaya doğrudur

Artıq o da məlumdur ki, son zamanlar Balkanlar və Mərkəzi Asiya ölkələri Türkiyənin xarici siaysətinin prioritet istiqamətlərindən birinə çevrilməkdədir. Hər iki halda Türkiyə özünün sabitləşdirici, vasitəçi və investiyaçı aspekti ilə seçilir. Məlumdur ki, Bosniya və Hersoqovinanın ərazi bütövlüyü çətin və incə təməllər üzərinə dayanır. Onun dayanıqlı olması Rusiyadan, Avropa İttifaqından və Türkiyədən asılıdır - bu amillər Balkan geosiyasətinin əsasıdır. Bu xüsusda Türkiyə özünün Balkan regionundakı güclü varlığını mobilizə edir, həmin istiqamətdəki siyasəti ilə Serbiya, Horvatiya, Bosniya və Hersoqovina ilə münasibətlərini yaxşılaşdırır. Ankara əməkdaşlıq layihələrini realizə edir (məsələn, Sarayevo-Belqrad avtomagistralı) ki, Balkanlar bir daha 1990-cı illərdəki kimi münaqişə vəziyyətinə səbəb olmasın. Əbəs deyil ki, bu yaxınlarda Bosniya və Hersoqovinanın Prezident şurasının üzvləri Türkiyəni "sülhün və sabitliyin qarantı" kimi gördüklərini bəyan etdilər və Ərdoğanın vasitəçiliyinə, ortaqlıq təkliflərinə olduqca müsbət yanaşdıqlarını vurğuladılar. Bütün bu kimi məsələlər isə bir daha sübut edir ki, qardaş Türkiyə dövləti və onun lideri Rəcəb Tayyib Ərdoğanın hərbi və xarici siyasəti Ankaranın dünya miqyasında söz sahibi olması gerçəkliyini kifayət qədər isbatlayır.

*Rövşən RƏSULOV*

# Azərbaycanın yeni inkişaf mərhələsi



*Rauf Əliyev, Milli Məclisin deputatı*

2021-ci il 30 avqust tarixində Şuşada böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışı keçirildi. Bu tədbir ölkəmizin həyatında əlamətdar hadisə kimi qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları açılış mərasimindəki çıxışında bir çox mühüm hadisələri qeyd etmişdir.

Qeyd olunmuşdur ki, 39 il əvvəl Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada Vaqifin məqbərəsi açılmışdı. Erməni vadalizminin nəticəsində dağıdılmış məqbərə Heydər Əliyev Fondu tərəfindən qısa müddət ərzində bərpa olunmuşdur. Vaqif Poeziya Günləri də , "Xarıbülbül" festivalı da bərpa edildi. Şuşanın bərpası bu il yanvarın 14-də başladı və qısa müddət ərzində böyük işlər görülmüşdür. Zəfər yolu artıq inkişafın və azad olmuş torpaqlara yeni həyatın qaytarılmasının rəmzinə çevrilib. Şuşaya tam mənada zəngin həyatı qaytarmaq üçün bütün zəruri addımlar atılır. Şuşanın elektrik təsərrüfatı, Şuşaya suyun verilməsi bərpa edildi, tarixi abidələrin bərpasına start verilmişdir. Üç məsciddə təmir-bərpa işləri davam edir. Ermənilər tərəfindən güllələbaran edilmiş Azərbaycanın dahi şəxsiyyətlərinin- Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri mərkəzi meydanda qoyulmuşdur. "Qarabağ" hoteli əsaslı təmirdən sonra istifadəyə verildi. Yeni yaşayış kompleksinin təməli qoyulmuşdur.

Cənab Prezident İlham Əliyev şıxışında qeyd etmişdir ki, 30 ilə yaxın davam edən danışıqlar prosesinin heç bir nəticəsi olmadı. İndiki hadisələrin gedişatı, ikinci Qarabağ müharibəsindəki dövr və beynəlxalq güclərin hərəkətləri onu göstərir ki, bu məsələ heç bir vaxt danışıqlar yolu ilə öz həllini tapa bilməzdi.

44 gün davam edən Vətən müharibəsi nəticəsində Qəhrəman Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğala son qoydu, torpaqlarımız azad olundu. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir.

Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və Azərbaycan yenidən nəfəs almağa başladı. Dözüm, səbir, ədalətə inam öz Prezidentinə inam Azərbaycan xalqını Qələbəyə gətirdi. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarının rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən balanslaşdırılmış siyasət, 44 gün davam edən Vətən müharibəsində Qəhrəman Ordumuzun tarixi qələbəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatlar, eyni zamanda beynəlxalq əməkdaşlıq sahəsində əldə edilən uğurlar imkan verir ki, yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanın həm işğaldan azad olmuş ərazilərində, həm də bütünlükdə ölkə üzrə hərtərəfli sürətli inkişafa nail olmaq üçün nəzərdə tutulan bütün layihələr həyata keçirilsin.

# Açıq havada yerləşən restoranlarda COVID-19 pasportu tələb edilir?



Açıq havada yerləşən kafe, restoran, çay evləri və digər ictimai-iaşə obyektlərində vətəndaşlardan covid pasportu tələb olunmur. Bunu "İki sahil"ə açıqlamasında Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Nurlan Əliyev deyib. O, bildirib ki, tələblər ancaq qapalı məkanlara aiddir.

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq qərarına görə, bu gündən yaşı 18-dən yuxarı olan şəxslər ictimai iaşə müəssisələrində, mehmanxanalarda və iri ticarət mərkəzlərində qapalı məkanda göstərilən xidmətlərdən yalnız COVID-19 pasportu olduğu halda istifadə edə bilərlər.

# Məşhur aktyorun 100 milyonluq malikanəsi

Bir müddət Ceyms Bond obrazına həyat verən aktyor Pirs Brosnan malikanəsini satışa çıxarıb. "İki sahil" xarici KİV-ə istinadən xəbər verir ki, villasını 100 milyon dollara satışa çıxaran ulduz alıcı tapa bilməyib. Bu səbəbdən o, bu fikrindən daşınmalı olub.

Los-Anceles bölgəsindəki ən bahalı səkkizinci ev olaraq bilinən bu malikanənin inşası 10 il ərzində tamamlanıb. Aktyor evin dizaynında rol aldığı filmdən ilham alıb.



Pirs 2000-ci ildə iki fərqli binadan ibarət olan bu kompleksin sahələrindən birinə 5,1 milyon dollar, digərini isə 2,25 milyon dollar ödəyib. Malikanədə doqquz yataq və 14 vanna otağı, hovuzun kənarında 20 nəfərlik oturma sahəsi, bar, kinoteatr, idman salonu var.

# Qan verməninfaydaları hansılardır?

**"Qan insan orqanizminin ən vacib elementlərindən biridir. Qan həyat mənbəyidir. Qan olmadan heç bir bədən üzvü fəaliyyət göstərə bilməz. Qan müsbət və mənfi olmaqla 4 qrupa bölünür. Qan qruplarına əsasən orqanizm haqqında çox maraqlı məlumatlar öyrənmək mümkündür. Bunların içində ən geniş yayılanı 1-ci qrupdur. Dünya əhalisinin 40 faizi 1-ci, 33 faizi 2-ci, 21 faizi 3-cü, 5,6 faizi isə 4-cü qan qrupuna malikdirlər". SİA bu fikirləri söyləyən həkim, infeksionist Xatirə Əliyevanın müsahibəsini təqdim edir:**

***- Hansı şəxslər qan verə bilər?***

- 18 yaşına çatmış və 65 yaşa qədər hər bir şəxs qan verə bilər.

***- Bəs, kimlər qan verə bilməz?***

- Virus hepatiti B, C və immun çatışmazlığı olan xəstələr heç vaxt qan verə bilməz. 2-ci hemoqlobin dəyəri və çəkisi 50 kiloqramdan aşağı olan şəxslər, şəkərli diabeti olan xəstələr və hamilə qadınlar qan verə bilməz. Lakin bəzi xəstəliklər var ki, onlar sağaldıqda müəyyən bir müddət keçdikdən sonra qan verə bilərlər. Bunlara hepatit A-ya yoluxmuş xəstələr aiddir ki, onlar bir il keçdikdən sonra qan verə bilər. Malyariya keçirmiş xəstələr 3 ildən sonra, vərəm xəstələri isə sağaldıqdan 5 il sonra qan verə bilərlər. Qeyd edim ki, 18-65 yaşına çatmış kişilər ildə 4 dəfə, qadınlar isə ildə 3 dəfə qan verə bilərlər.

***- Bəs, qan vermənin faydaları hansılardır?***

- Qan vermək qanda şəkərin, qan təzyiqinin, ürək döyünmələrinin azalmasına səbəb olur. 2-ci ürək xəstəliklərinin riskini azaldır, 3-cü



immun sisteminin güclənməsinə səbəb olur. 4-cü orqanizmdə yeni hüceyrələrin yaranmasına səbəb olur. Ümumiyyətlə, orqanizmin yenilәşməsinə səbəb olur.

***- Qan verərkən hansı qaydalara əməl etmək lazımdır?***

- Qan verməkdən 72 saat öncəki qan durulaşdırıcı bəzi dərmanlardan, məsələn, "analqin", "aspirin", "noşpa" kimi dərmanlardan istifadə etmək olmaz. İnsan rahat yarmalı, normal yuxu rejiminə əməl etməli və spirtli içki içməməlidir. Qan verən şəxs qan verdikdən sonra bol-bol maye qəbul etməli, kofe, çay içməli, şokolad yeməlidir.

***- Siqaret çəkən şəxslər qan verə bilər?***

- Qan verən şəxsin siqaret çəkməməsi məsləhət görülür. Çünki, siqaretin tərkibində olan nikotin qana keçir və o əgər bu qan donor kimi yeni doğulmuşlar üçün verilirsə, o yeni doğulmuşlar üçün də təhlükə yaradır.

***- Bəzi insanlar öz sağlamlığı üçün narahat olaraq qan verməkdən çəkinir. Bunun səbəbi nədir?***

- İnsanlar qan verməkdən qorxmamalıdırlar. Çünki qan verməklə orqanizmdə qan yaradıcı üzvlərin fəaliyyəti daha da aktivləşir və qan yaranma prosesi güclənir və bununla da immun sistemi güclənir, orqanizmdə yeni hüceyrələr yaranır və orqanlar da yeni hüceyrələrlə öz fəaliyyətlərini davam etdirir.

***- Qanı azdır deyilən zaman nə nəzərdə tutulur?***

- Qan vermək üçün müraciət edən şəxs ilk öncə həkim müayinəsindən keçir. Hemoqlobin dəyəri və çəkisi yoxlanır. Hemoqlobin dəyərinin aşağı olması qan azlığının əsas göstəricisidir.

***Ayşən Vəli***

# Histerektomiya nədir?

## GİNEKOLOQ AÇIQLADI



"Histerektomiya-uşaqlığın çıxarılması əməliyyatıdır. Açıq üsulla və vaginal aparılır. Əməliyyat zamanı uşaqlığı yerində tutan bağlar, qidalandıran damarlar alətlərlə tutularaq kəsilir, tikişlərlə bağlanılır. Bu zaman önəmli olan uşaqlığa yaxın yerləşən sidik kisəsinin, sidik kanalının və bağların zədələnməməsidir. Uşaqlığın, yumurtalıqların, uşaqlıq boynunun bədxassəli şişləri, uşaqlığın simptomlu miomaları, endometrioz olan hallarda aparılır". Bu sözləri SİA-ya açıqlamasında cərrah, mama-ginekoloq Ləman Əliyeva



deyib.

"Subtotal histerektomiya və ya uşaqlığın amputasiyası-uşaqlığın uşaqlıq boynu saxlanılmaqla çıxarılmasıdır. Total histerektomiya və ya uşaqlığın ekstirpasiyası-uşaqlığın uşaqlıq boynu ilə birlikdə çıxarılmasıdır. Histerosalpinqoovariektomiya-uşaqlığın artımlarla (uşaqlıq boruları və yumurtalıqlar) birlikdə çıxarılmasıdır.

Radikal histerektomiya -uşaqlığın artımlarla, uşaqlıq boynu və uşaqlıq yolunun yuxarı 1/3-i, ətraf çanaq toxumaları və limfa düyünləri ilə birlikdə çıxarılmasıdır.

Açıq yolla (abdominal) histerektomiya - uşaqlığın laparotomiya (kəsik aparmaqla) ilə çıxarılmasıdır".

Həkim sözlərinə belə davam edib: "Laparoskopik histerektomiya-uşaqlığın laparoscopic üsul ilə çıxarılmasıdır (kəsik aparmadan). Vaginal histerektomiya -uşaqlığın uşaqlıq yolundan çıxarılmasıdır. Vaginal histerektomiyanı laparoskopik əməliyyatın köməkliyi ilə də etmək mümkündür".

***Ayşən Vəli***

# Hande Harmancı: "Qrip mövsümünün yaxınlaşması epidemioloji vəziyyətə təsir edə bilər"

Qrip mövsümünün başlaması və havaların soyuması ilə birlikdə qapalı məkanlarda daha çox vaxt keçirilməsi epidemioloji vəziyyətə təsir göstərə bilər. Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib. O bildirib ki, növbəti qrip mövsümü sürətlə yaxınlaşır: "İndi ölkələrin qriplə bağlı vəziyyəti izləməsi, hər iki virusu əhatə edəcək şəkildə gündəlik epidemiyaya nəzarət sistemini yenidən qurması və gücləndirməsi çox vacibdir. Bu il keçən ildəkindən fərqli



olaraq COVID-19-dan ağır xəstələnmələrin və ölümlərin qarşısını almağa imkan verən peyvəndlərimiz var. Peyvənd olunmaqla yanaşı, maska taxaq, əllərimizi təmiz saxlayaq, qapalı məkanları havalandıraq və fiziki məsafə saxlayaq. Bu yolla biz yoluxmaların qarşısını ala, özümüzü və sevdiklərimizi qoruya bilərik".

# DOST mərkəzləri 500 mininci vətəndaşa xidmət edib

***Sentyabrın 1-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin DOST mərkəzlərində 500 mininci vətəndaş müraciəti qeydə alınıb. Agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakının Binəqədi rayon sakini, Vətən müharibəsi iştirakçısı Elmir Bayramlı 4 saylı Bakı DOST Mərkəzindəki vahid əlaqələndirmə mərkəzinə müharibə veteranı adının və vəsiqəsinin verilməsi üçün müraciət edib.***

**DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov ona təşəkkürnamə və simvolik hədiyyələr təqdim edib.**

**E.Bayramlı DOST mərkəzində göstərilən xidmətlərdən razı qaldığını və dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ və şəffaf təşkil olunduğuna görə təşəkkürünü bildirib.**



**2019-cu ilin mayından etibarən 5 DOST mərkəzi açılıb və paytaxtın 10 rayonu (Yasamal, Səbail, Qaradağ, Xəzər, Pirallahı, Nizami, Sabunçu, Suraxanı, Binəqədi və Nərimanov), eləcə də Abşeron rayonu DOST xidmətləri ilə əhatə olunub. 2021-ci il üzrə vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi 98,1 faizdir.**



**Bakıda və respublikanın regionlarında yeni DOST mərkəzlərinin açılması nəzərdə tutulub.**

# Milli dönüklərin, xəyanətkar ünsürlərin bəd niyyətləri

***Son günlər sosial şəbəkə xəstələri, daha doğrusu təxribatçılar Vidadi İsgəndərlinin, Arif Məmmədovun, Sevinc Osmanqızının və digərlərinin müstəqil Azərbaycan dövlətinin qazandığı mühüm nailiyyətlərdən, xüsusilə torpaqlarını işğaldan azad etməsi və görülən bərpa- quruculuq işlərindən ciddi narahatlıq keçirirlər. Bunun nəticəsidir ki, erməni lobbisinin sifarişlərini yerinə yetirən və onlara xidmət edən antimilli satqın qrup Azərbaycana qarşı "qara piar" kampaniyasında yenidən fəallaşmağa cəhd edirlər.***



*Yaxud anti-Azərbaycan qüvvələrin başında duran manyakal-depressiv psixoz Vidadi İskəndərli, Arif Məmmədovun, Sevinc Osmanqızı kimilər...*

Bu xəyanətkar qrup açıq-aşkar ermənipərəst mövqe nümayiş etdirir, erməni ideoloqlarının uydurma tezislərinə istinad edərək ictimai rəyi manipulyasiya etməyə çalışırlar. Bu şəbəkənin üzvü, xaricdə məskunlaşaraq Azərbaycan dövlətçiliyinə və xalqımıza qarşı aparılan çirkin kampaniyaların aktiv iştirakçılarından olan Vidadi İsgəndərlinin bu günlərdə səsləndirdiyi və Ermənistanın işğalçılıq siyasətinə bəraət qazandırmağa xidmət edən absurd fikirləri də dediklərimizi sübuta yetirir. O açıq şəkildə bildirib ki, müharibə yenidən başlasa, əlində silah ermənilərə qarşı yox, bizə qarşı döyüşəcək. İxtisasca hüquqşunas olan bu adam yəqin ki, nə danışdığının fərqindədir. Bu xəyanətkar qrup açıq-aşkar ermənipərəst mövqe nümayiş etdirir, erməni ideoloqlarının uydurma tezislərinə istinad edərək ictimai rəyi manipulyasiya etməyə çalışırlar.Bu yerdə rus yazıçısı Lev Tolstoyun dediyi sözləri xatırlatmaq yerinə düşür: "Vətənpərvərlik yaramazların son sığınacaq yerinə çox tez-tez çevrilir". Bütün arqumentləri qurtaran adamlar sadəcə yalan danışmağa, özlərini şəxsi ambisiyaları barədə yox, yalnız xalq, onun rifahı barədə düşünən millət xilaskarı kimi göstərməyə başlayırlar. Təsəvvür edin, özünü əzabkeş, iqtidar tərəfindən təqib olunan biri kimi göstərən müxalifətin satqınlar "sülaləsi" ancaq satqınları müdafiə etməlidir. Bu təəccüb də doğurmur. Budur, danışanda ağzının suyu axan terrorçunun siması. Vidadri İkəndərli onu da bilir ki, onun getdiyi bir yol var - məğlubiyyət yolu. Bu o Vidadi İskəndərlidir ki, özgənin yalı ilə bəslənilərək torpğını, dədə-baba yurdunu sataraq, Avropa zibilliklərində eşələnir.

### Xəyanət və riyakarlıq yolunu tutanların...

Xəyanət və riyakarlıq yolunu tutan Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Vidadi İskəndərli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu... kimi xəyanət və riyakarlıq yolunu tutan sapı özümüzdən olan baltalar, yəni xarici dairələrə və erməni lobbisini birbaşa xidmət edənlər bütün vasitələrlə çalışırlar ki, Azərbaycanın bu böyük qələbəsini kiçilitsinlər. Ancaq bu satqınlar bilməlidirlər ki, Vətən müharibəsində qazandığımız qələbə Azərbaycan tarixində əbədi qalacaqdır.

Və bu gün Azərbaycan hakimiyyətinə qarşı əsassız ittihamlarla çıxış edənlər unutmamalıdır ki, vaxtı ilə məhz onların səriştəsizliyi, bacarıqsızlığı nəticəsində Azərbaycan kapitulyasiya vəziyyətinə düşmüş, Dağlıq Qarabağı və ətraf rayonları itirmişdir. Bu gün Azərbaycan Prezidenti xalqımıza böyük ağrılar yaratmış həmin səhvləri yüksək siyasi iradəsi, mətinliyi, yüksək diplomatik səriştəsi ilə aradan qaldırdı. Radikal müxalifət torpaqlarımızın azad olunmasına sevinmək, bunu qiymətləndirmək, Azərbaycan xalqından üzr istəmək əvəzinə, bu gün yenə də xəyanət və riyakarlıq yolunu tutur. Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiyanı tətbiq edərək, ən müasir silahlardan istifadə etməklə, habelə minimal itkilər verərək qısa müddət ərzində düşmənin əksər hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Özü haqqında məğlubedilməzlik sindromu yaradan Ermənistan silahlı qüvvələri qısa müddət ərzində darmadağın edildi.

Deyir "qozbeli qəbir düzəldər", amma radikal müxalifət deyilən satqınlar "sülaləsini" görünür, bu 28 il ərzində qəbir də düzəldə bilməyib. Və bu gün Azərbaycan hakimiyyətinə qarşı əsassız ittihamlarla çıxış edənlər unutmamalıdır ki, vaxtı ilə məhz onların səriştəsizliyi, bacarıqsızlığı nəticəsində Azərbaycan kapitulyasiya vəziyyətinə düşmüş, Dağlıq Qarabağı və ətraf rayonları itirmişdir. Bu gün Azərbaycan Prezidenti xalqımıza böyük ağrılar yaratmış həmin səhvləri yüksək siyasi iradəsi, mətinliyi, yüksək diplomatik səriştəsi ilə aradan qaldırdı. Radikal müxalifət torpaqlarımızın azad olunmasına sevinmək, bunu qiymətləndirmək, Azərbaycan xalqından üzr istəmək əvəzinə, bu gün yenə də xəyanət və riyakarlıq yolunu tutur.

### Nəticə...

Ancaq bu satqınlar bilməlidirlər ki, Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi bilir və özünün yaxşı bildiyini də bir daha nümayiş etdirdi. Bu Qələbə azərbaycanlılar haqqında "məğlub xalq" sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Bu realllığı heç vaxt anlamayan Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Xədicə İsmayılova, Qənimət Zahid, Leyla Yunus, Vidadi İskəndərli... bu kimi sosial şəbəkə virusları bilməlidirlər ki, Azərbaycan xalqı bundan sonra da öz liderinə böyük etimad göstərərək təmkin nümayiş etdirəcək, hərbi qələbəni siyasi qələbə kimi möhkəmlədirəcək, yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşəcək. Və Vətən müharibəsində qazandığımız qələbə Azərbaycan tarixində əbədi qalacaqdır.

Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Xədicə İsmayılova, Qənimət Zahid, Leyla Yunus, Vidadi İskəndərli... bu kimi şəxsiyyətsizliyi və simasızlığı ilə unudurlar ki, antiazərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib tula payı almaqla, yallanmaqla heç nəyə nail ola bilməyəcəklər. Və onu da bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır və bağışlamayacaq da!

**Rəfiqə HÜSEYNOVA**

# Həkim-fitoterapevt: İybilmənin bərpası üçün fitoterapiya müalicəsi faydalıdır

***İybilmənin qismən və ya tamamilə itirilməsi müvafiq olaraq hiposmiya və anosmiya adlanır. Həmin xəstəliklər anadangəlmə və ya qazanılmış ola bilər. Hiposmiya və anosmiya tamamilə fərqli səbəblər nəticəsində yarana, müxtəlif orqan və toxumaların travmasının simptomları ola bilər. Ölkədə, eləcə də dünyada yayılmış yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma zamanı da hiposmiya və anosmiyaya rast gəlinir. Yəni, bu, həmçinin COVID-19-un başlıca simptomlarındandır.***

AZƏRTAC xəbər verir ki, həkim-fitoterapevt Füzuli Hüseynov iybilmənin qismən və ya tamamilə itməsi zamanı fitoterapiya müalicəsinin faydalarından danışıb.

Həkim bildirib ki, iybilmə güclü soyuqdəymə və müxtəlif virus infeksiyaları zamanı müvəqqəti itə bilər: "Qorxmaq lazım deyil, təbii haldır. Adətən iybilmənin itməsi müvəqqəti xarakter daşıyır. Bəzi xəstələr isə uzun illər iybilməni tamamilə itirirlər. Bu, daha çox allergik rinitdə burun balıqqulaqlarının şişməsi və iltihablaşması nəticəsində baş verir".

F.Hüseynov hiposmiya və anosmiya xəstəliklərinin müalicəsində faydalı olan bir neçə fitoterapiya reseptini bölüşüb: "İybilmənin bərpası üçün burun dəliklərinə gündə 3 dəfə propolislə birlikdə 3-4 damcı ud hindi yağı və ya 2 damcı qarazirə yağı tökmək məsləhətdir. Bundan başqa, 1 çay qaşığı alma sirkəsinin 3 xörək qaşığı su ilə qarışımından sutkada 4-5 dəfə burun dəliklərinə 5-6 damcı tökmək faydalıdır. Hipozmiya və anosmiyanın müalicəsi zamanı ud hindi tozunun içilməsi allergiyanın qarşısını alır. Gün ərzində 3 dəfə yeməkdən əvvəl bir çay qaşığı ud hindi tozu ilə 1 stəkan su içmək faydalıdır. Bu qarışımdan 2 ay istifadə etmək mümkündür".

Həkim-fitoterapevt iybilmənin bərpasında çörəkotu bitkisinin faydasından danışıb: "Bir çay qaşığı çörəkotu yarım stəkan sirkədə 5 dəqiqə qaynadılıb 1 gün sonra süzülməlidir. Daha sonra stəkan tam dolana qədər dəmləməyə qliserin əlavə olunmalıdır. İybilmənin bərpası üçün sutkada 3 dəfə 3 damcı burun dəliklərinə bu qarışığın tökülməsi məsləhətdir. Həmçinin bir stəkan suya 1 xörək qaşığı alma sirkəsi ilə 1 çay qaşığı balı qarışdırıb gündə 3 dəfə yeməkdən əvvəl 1 stəkan içmək də faydalıdır".



# Səhv siyasət müxalifətin faciəsi və süqutudur

***Bugünkü mövcud reallıqlar onu təsdiq edir ki, Azərbaycan dünyanın ən inkişaf etmiş dövlətləri sırasında öncül sıralarda qərarlaşır. Xüsusi ilə də, 30 il erməni işğalı altında olmuş torpaqlarımızı 44 günlük Vətən müharibəsi ilə azad etməsi Azərbaycanın dünya çapında mövqelərini möhkəmləndirib, hörmətini artırıb. Təbii ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbəni şərtləndirən başlıca amil xalq-hakimiyyət birliyi və bunun fonunda müasir dövrün tələblərinə uyğun olaraq Silahlı Qüvvələrin yaradılmasıdır.***



Vətən müharibəsində Azərbaycan xalqı Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək düşmənə qarşı vahid cəbhədə toplandı. Məhz bu amil düşmənin başını əzməklə, torpaqlarımızı azad etməyə imkanlar yaratdı. Artıq münaqişə bitib və ölkəmizin ərazi bütövlüyü təmin olunub. Yağı düşmənin talan edib, viran qoyduğu ərazilərin bərpası istiqamətində Azərbaycan dövləti geniş miqyaslı işlər görməkdədir. Söz yox ki, dövlətimiz bunun da öhdəsindən gələcək. Çünki, Azərbaycana yaxın tərəfdaş dövlətlərin dəstəyinin olması və iqtisadi imkanları problemlərin yaxın gələcəkdə tamamilə aradan qaldırılacağına əminlik yaradır.

Fakt ondan ibarətdir ki, 2016-cı ilin Aprel döyüşlərində və 2020-ci ilin Tovuz döyüşlərindən mülki əhaliyə və dövlət əmlakına dəymiş ziyanın aradan qaldırılması istiqamətində əhəmiyyətli işlər görülmüş və artıq dəymiş ziyan aradan qaldırılmaqdadır. Eyni zamanda Vətən müharibəsində yaralanan qazilərə, şəhid ailələrinə də hərtərəfli dövlət qayğısı göstərilir. Bununla bağlı ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev əhali ilə görüşündə demişdir: "Şəhid ailələrinin problemləri öz həllini tapacaq. Bu gün buradan bizim bütün aidiyyəti qurumlarımıza göstəriş verirəm ki, İkinci Qarabağ müharibəsində, Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş insanların yaxınlarına qısa müddət ərzində həm maddi dəstək göstərilməlidir, eyni zamanda, indi onların uçotu aparılır. Dəqiq uçot aparılandan sonra onlara mənzillərin, evlərin verilməsi təmin ediləcəkdir".

### Azərbaycan dövləti vətəndaşının yanındadır

Artıq yüzlərlə şəhid ailəsinə, qazilərə dövlət tərəfindən maddi və mənəvi dəstək göstərilib, onlara mənzillərin açarları təqdim olunub. Bu proses bundan sonrada davam etdiriləcək. Azərbaycan dövləti həmişə olduğu kimi, vətəndaşının yanındadır. Nəzərə almaq lazımdır ki, hüquqi və demokratik dövlət quruculuğuna sədaqətliyi ilə seçilən Azərbaycan müasir dövrün tələbinə və reallığına uyğun olaraq inkişafını sürətləndirən islahatlar həyata keçirməklə səmərəli nəticələr əldə etməkdədir. Xüsusi ilə də, ölkə Prezidenti İlham Əliyevin rüşvətxorluğa və korrupsiyaya qarşı apardığı sərt tədbirlər, iqtisadi və kadr islahatları Azərbaycanın beynəlxalq aləmdə qazandığı müsbət imicin daha da möhkəmlənməsinə və qüdrətinin artmasına təkan olub. Əldə etdiyi nailiyyətlər Azərbaycanın beynəlxalq hüququn güclü, nüfuzlu müstəqil subyekti kimi çıxış etməsinə yeni imkanlar qazandırıb.

Təbii ki, Azərbaycanın bugünkü iqtisadi, siyasi, sosial, mədəni və digər sahələr üzrə yaşanan inkişafının təməli 1993-cü il də qoyulub. 1990-1993-cü illərdə xaos və anarxiyanın mövcudluğu o dövrdə respublikamızda ciddi problemlər, fəsadlara yaratmışdır. Belə ağır və fəlakətli dönəm də xalq nicatını və qurtuluşunu Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə gələrək, xalqı və dövləti bu bəladan xilas etməkdə gördü. Xalq inamında və etimadında yanılmadı. Dahi Öndərimizin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə müstəqilliyimizin məhv olması, iqtisadi tənəzzülün və hərbi-siyasi məğlubiyyətlərin aradan qaldırılmasına nail olundu. Qısa müddət sonra Azərbaycan azad, demokratik sosial iqtisdi cəhətdən güclü və qüdrətli dövlətə çevrildi. Bunu qədir bilən Azərbaycan xalqı çox gözəl bilir və qiymətləndirir.

### Müxalifət reallığı dərk edir

Görünən odur ki, bütün hallarda siyasi fəaliyyətləri ilə nala- mıxa vuran, sərsəm iddialar ortaya qoyan müxalifətdə Azərbaycan hakimiyyətini apardığı düzgün, məqsədyönlü siyasəti ilə ölkəmizin dünyada yerinin və rolunun möhkəmləndiyini dərk edirlər. Sadəcə, xaricdən maddi və mənəvi baxımdan asılı olmaları, onlara mövcud həqiqəti qəbul etməyə imkan vermir. Hələ də, iddialı və məntiqsiz iddialarla çıxış edib, hakimiyyətə "ciddi rəqib" olduqlarını nümayiş etdirməyə çalışırlar. Ancaq reallıqda hakimiyyətə alternativ ola biləcək bir qüvvə kimi təsəvvür edilmirlər. Həm də ona görə ki, qatıldıqları təleyüklü tədbirlərdə uğursuzluq onların bir növ alın yazısı olub. Konkret desək 1993-cü ildən bu günə qədər müxalifətin qatıldığı bələdiyyə, parlament və prezident seçkiləri onlar üçün uğursuzluqla nəticələnib. Hətta bələdiyyələrə keçirilən seçkilərdə belə onlar 0, 5 faizlik baryeri keçə bilməyiblər. Bu onların faciəsi və süqutudur. Ancaq məğlubiyyətlərini etiraf edib, siyasətdən getməyə çalışmırlar. Halbuki, bəzən danışanda, çıxışlar edəndə demokratiyadan hay-küylü sitatlar gətirir, dünya ölkələrindən misallar göstərirlər.

Qardaş Türkiyənin siyasi arenasında dəfələrlə seçki məğlubiyyəti ilə üzləşən partiya sədrlərinin oturduqları kreslonu tərk etdiklərinin şahidi olmuşuq. 1998-ci ildə Almaniyada keçirilən kansler seçkisində məğlub olan Helmut Kol, Afrikanın azadlıq mücahidi Nelson Mandela, Böyük Britaniyada "dəmir ledi" kimi tanınan Marqaret Tetçer, Türkiyədə Böyük Millət Məclisinə keçirilən parlament seçkilərində Dövlət Baxçalı, Məsud Yılmaz, Tansu Çillər, Bülənt Ecevit və bu kimi digər dünyaca tanınmış siyasətçilər istefa verdilər. Sonrakı mərhələdə də, onlar yenidən siyasətə qayıtmağa və yenidən şanslarını yoxlamağa cəhdlər göstərmədilər. Yəni artıq siyasətdə bitdiklərini dərk etdiklərindən, tamamilə fərqli fəaliyyət yolu seçməklə həyatlarını davam etdirdilər. Azərbaycan müxalifəti isə hələ də, yerlərində saymaqlarına baxmayaraq siyasətdən getmək istəmirlər. Bu da onların siyasətə gəlir mənbəyi kimi baxmalarından irəli gəlir. Yəni Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri siyasətdən getsələr bir növ maddi tənəzzülə uğramış olarlar. Bu baxımdan sözügedən şəxslər ömürlərinin sonuna qədər siyasətdə boş qazanı danqıltmaqda davam edəcəklər. Bu, bir növ də onların həyat tərzi, yaşam amalı olacaq.

**İ.ƏLİYEV**

# Antimilli ünsürlərin qatarı çoxdan gedib...

Cəmiyyətimizin hələ uzun illər bundan əvvəl antimilli fəaliyyətlərinə, Azərbaycanın düşmənləri ilə işbirliyində olduqlarına görə AXCP və Müsavat Partiyasının üzərindən birdəfəlik xətt çəkdiyini yaxşı bilirik. Hamımız onu da yaxşı bilirik ki, milli maraqlarımıza zidd hərəkətlərinə görə dəfələrlə ifşa olunan AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli, Müsavat Partiyasının başqanı Arif Hacılı və onların yanında düşmən yalı ilə yallananlar, xaricdə "siyasi mühacir" adı ilə məskunlaşan, manqurtlaşan Qənimət Zahid, Sevinc Osmaqızı, Tural Sadıqlı, Fəhmin Hacıyev, Vidadi İsgəndərli, Azər Kazımzadə kimi satqın, zəkasız, siyasi fəhmsizlərin Azərbaycan əleyhinə apardıqları qarayaxma kampaniyası birmənalı olaraq iflasa uğrayacaq. Onların adı isə Azərbaycan tarixinə xəyanətkar kimi yazılacaq.

Məlum həqiqətdir ki, bir millət üçün milli və ya dövlət maraqları hər şeyin fövqündə dayanır. Xalqına söykənərək, ona güvənərək ən çətin problemləri qətiyyətlə, səbrlə, müdrik qərarları ilə uğurla həll edən Prezident İlham Əliyev bunu belə ifadə edir: "Müstəqil xarici siyasət aparmaq heç də asan deyil, ancaq çox şərəflidir. Bəzi ölkələr başqa yol seçirlər, böyük ölkələrin qanadının altında yer alırlar. Bu, bəlkə daha rahat yoldur. Ancaq bizim yolumuz ləyaqətli yoldur. Azərbaycanın dünya miqyasında rolu göstərir ki, bu, yeganə düzgün siyasətdir. Bu siyasətin əsas prinsipi Azərbaycan dövlətinin və Azərbaycan xalqının milli və dövlət maraqlarıdır. Bu, bizim üçün əsas şərtdir".



Anti-Azərbaycan dairələrin buyruq qulları olan xəyanətkarlar dəstəsi-AXCP sədri Əli Kərimli, "Milli Şura" deyilən qurumun rəhbəri Cəmil Həsənli, Müsavat Partiyasının başqanı Arif Hacılı və onların ətrafındakı yala hürənlər təxminən 30 il müddətində ölkəmizin milli mənafelərini özlərinin korporativ maraqları naminə qurban verməyə hazır olduqlarını dəfələrlə sübut ediblər. Çünki onların Azərbaycanın milli maraqları ilə heç bir bağlılığı yoxdur. Dağıdıcı müxalifət təmsilçiləri üçün milli maraqlar yox, öz şəxsi mənafe və ambisiyaları əsasdır. Şübhəsiz, bu marginalların mövqeyi ölkəmizi istəməyən düşmən qüvvələrin, anti-Azərbaycan dairələrin maraqları ilə tam olaraq üst-üstə düşür. Uzun illər məlum antimilli düşərgədə baş verənlər onu deməyə əsas verir ki, dağıdıcı müxalifətin maraqları Azərbaycanın milli mənafeləri ilə tam ziddiyyət təşkil edir.

Antimilli ünsürlər bu gün də həmin istiqamət üzrə öz çirkin, xəyanətkar fəaliyyətlərini davam etdirirlər. Bu günlərdə biz bir daha bunun şahidi olduq. Belə ki, 2021-ci il iyunun 15-də qardaş Türkiyə ilə Azərbaycan arasında imzalanan böyük tarixi əhəmiyyətə malik Şuşa Bəyannaməsi dən sonra Azərbaycanda fəaliyyət göstərən 48 siyasi partiya bu müqaviləni dəstəkləyən birgə bəyənat imzaladı. Xarici qüvvələrin əlində alətə çevrilən, daim ölkəmizin milli maraqlarına qarşı fəaliyyət göstərən Müsavat Partiyasının sədri Arif Hacılı və AXCP-nin sədri Əli Kərimli bu bəyanata da qarşı çıxdılar. Öz şəxsi ambisiyalarını hər şeydən üstün tutan bu "liderciklər" siyasi partiyaların birgə bəyanatına imza atmadılar. İmza atmaqdan imtina etmələri bir yana, üstəlik bu bəyanata qarşı həyasızcasına qara piar kampaniyası aparsalar da heç nəyə nail ola bilmədilər. Əksinə, xalqın nifrətini qazandılar, cəmiyyətin böyük etirazı ilə qarşılaşdılar.

44 günlük Vətən müharibəsi Azərbaycanın tarixi Zəfəri ilə başa çatdı. Azərbaycan son 2 əsrlik tarixində ilk dəfədir ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi ilk növbədə Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Vətən müharibəsinin zəfərlə başa çatmasından sonra dövlətimizin qarşısında duran əsas vəzifə azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulmasıdır. Artıq bu istiqamətdə müvafiq işlər başlayıb və quruculuq işləri sürətlə davam edir. Bütün bunlar isə başda məğlub Ermənistan olmaqla anti-Azərbaycan dairələrin və onların ruporu olan ölkə daxilindəki "beşinci kolon"nun xəyanətkar ünsürlərini ciddi narahat edir, əsəblərini tarıma, yuxusunu ərşə çəkir. Ancaq bunların heç bir faydası yoxdur. Çünki onlar dünən olduğu kimi, bu gün də məğlubdurlar. Necə deyərlər, bu dönüklərin, sosial şəbəkə parazitlərinin, xəyanətkar zümrənin qatarı çoxdan gedib...

***Amerikalı diplomat, ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza "Caliber" analitik mərkəzinə müsahibəsində 2-ci Qarabağ müharibəsi və onun nəticəsində bölgədə yaranmış vəziyyətlə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Metyu Brayza: "44 günlük müharibə Cənubi Qafqazda sabitliyə ən böyük maneəni aradan qaldırdı"



**- Cənab Brayza, 44 günlük müharibədən sonra bölgədəki vəziyyətlə bağlı nə deyə bilərsiniz? Qiymətləndirməniz necədir?**

-44 günlük müharibə Cənubi Qafqazda uzunmüddətli sabitliyə ən əhəmiyyətli və aşılmaz görünən əngəllərdən birini aradan qaldırdı. Beləliklə, Azərbaycan və Ermənistan, eləcə də Gürcüstan üçün uzunmüddətli sabitlik üçün yeni imkanlar verdi. Təəssüf ki, Ermənistanın təcrid olunması ona əhəmiyyətli fayda gətirəcək bir çox regional layihələrdən kənarda qalmasına səbəb oldu.

Bununla belə, Ermənistan siyasətində baş nazir Paşinyan və onun siyasi partiyasının son parlament



seçkilərində qazandığı qələbədə əks olunan fikir dəyişikliyini müşahidə etməyə başlayıram. Ümid edirəm ki, bu tendensiya davam edəcək və 10 noyabr tarixli bəyanatın son bəndində göstərildiyi kimi bütün nəqliyyat əlaqələri yenidən açılacaq. Bu da öz növbəsində Qafqazın hər üç ölkəsi üçün yeni imkanların açılmasına və sonradan Avropa ilə iqtisadi inteqrasiyasına səbəb olacaqdır.

Başa düşürəm ki, Gürcüstandakı müəyyən siyasi dairələr ölkələrinin Xəzər və Qara dənizləri arasında Türkiyə ilə birləşdirən əsas nəqliyyat qovşağı rolunu itirə biləcəyindən narahatdırlar. Ancaq hər üç ölkə iqtisadiyyatlarını birləşdirmək və iqtisadi artımı stimullaşdırmaq üçün birlikdə işləyə bilsələr, o zaman Gürcüstan nəinki son dərəcə əhəmiyyətli nəqliyyat marşrutlarına malik olacaq, həm də yeni üstünlüklər əldə edəcək.




Türkiyə, Rusiya və İran kimi qonşu ölkələr təbii ki, sonrakı hadisələrin inkişafında mühüm rol oynayacaq. Ancaq nəzərə almağa dəyər ki, bəlkə də, bütün tarixlərində heç vaxt Azərbaycan, Ermənistan və Gürcüstanın öz müqəddəratını təyin etmək üçün bu qədər böyük potensialı yox idi.

**- Siz təkcə ABŞ-ın Azərbaycandakı səfiri deyildiniz, həm də ATƏT-in Minsk Qrupunun həmsədri idiniz, yəni həm münaqişənin səbəbləri, həm nəticələri, həm də Ermənistanın dağıdıcı mövqeyi səbəbindən uzanan danışıqlar prosesi ilə yaxşı tanışsınız. Buna görə sizə bir sualım var: 2020 -ci ilin sentyabrınadək Azərbaycanın beynəlxalq təşkilatların köməyinə ümid etmədən öz torpaqlarını təkbaşına qaytaracağını, BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü həyata keçirəcəyini təsəvvür edə bilərsinizmi?**

- Düzünü desəm, yox. Azərbaycanın bu təşkilatların köməyi olmadan işğal altında olan torpaqlarını geri qaytaracağını təsəvvür edə bilməzdim. Amma eyni zamanda demək istəyirəm ki, BMT Təhlükəsizlik Şurasının həmin 4 qətnaməsi olmadan, BMT və ATƏT-in Minsk qrupunun iştirakı olmadan Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı mövqeyi o qədər də inandırıcı görünməzdi.

**- ABŞ Qarabağın bərpasında iştirak edəcəkmi? Bu, necə və hansı şəkildə təzahür edəcək?**

- Hazırda ABŞ-ın Qarabağın yenidən qurulmasında necə iştirak edəcəyi barədə heç nə deyə bilmərəm, çünki Bayden administrasiyası Əfqanıstana 20 illik müdaxilədən sonra hərbi kontingentimizin fəlakətli nəticəsini nəzərə alaraq, hələlik, başa düşülən cavab verə bilmir. Hesab edirəm ki, Cənubi Qafqazda liderliyini nümayiş etdirmək və davamlı sülh arzusunun altını çəkmək ABŞ-ın milli təhlükəsizlik maraqlarına uyğundur.

**- Türkiyənin Cənubi Qafqaz bölgəsindəki rolunu necə qiymətləndirirsiniz?**

- 2020-ci ilin iyul ayından etibarən Türkiyənin Cənubi Qafqazda təsiri kəskin artdı. Bu, Ermənistanla Azərbaycan arasında Tovuz hərbi toqquşması zamanı baş verib. Sonra ABŞ və Fransa siyasi proseslərdən çəkilməyə qərar verdilər və nəticədə Rusiya və Türkiyə tərəfindən doldurulan bir növ diplomatik boşluq yarandı.

Minsk qrupunun ABŞ-dan olan həmsədri kimi təcrübəmə əsaslanaraq deyə bilərəm ki, Türkiyə uzun müddətdir ki, bölgədə daha əhəmiyyətli rol oynamaq istəyirdi, lakin müəyyən siyasi səbəblərdən buna nail ola bilmədi. Ancaq yuxarıda qeyd etdiyim bölgədəki siyasi boşluq Türkiyənin Osmanlı İmperatorluğunun dağılmasından sonra ilk dəfə Cənubi Qafqazda bir daha böyük oyunçu olmasına imkan verdi.

Türkiyə indi Cənubi Qafqazda vəziyyəti yalnız sülhməramlılığı baxımından deyil, həm də iqtisadi baxımdan sabitləşdirməkdə həlledici rol oynamaq imkanına malikdir. Əminəm ki, Azərbaycan, Gürcüstan və Ermənistan bir araya gələrsə və Türkiyə investisiyalarının fəal iştirakı ilə yaxın gələcəkdə çiçəklənəcəklər. Şəxsən mən bu fikirlərə sahib olan bir çox nüfuzlu iş adamlarını tanıyıram. Fikrimcə, Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyədə bir-biri ilə əlaqəli ola biləcək mütəşəkkil sənaye zonalarının inkişafı yolu ilə iqtisadi artım, sabitlik və iş yerlərinin açılması üçün böyük imkanlar var.

**- Sizcə, niyə Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında olan ərazilərdə qanunsuz erməni birləşmələrinin tərksilahı yoxdur? Üstəlik, Rusiya sülhməramlılarının Qarabağa hərbi qüvvələrini göndərən Ermənistanla bir araya gəldiklərinə dair məlumatlar var. Moskva niyə öhdəliklərini yerinə yetirmir?**

- Mənə elə gəlmir ki, Rusiya Qarabağda qanunsuz silahlı dəstələri tərksilah etmək öhdəliklərini yerinə yetirmir, amma mən də bunu inkar edə bilmərəm. Sadəcə, bir şeyi təsdiq edəcək etibarlı məlumatım yoxdur. Amma hələ də inana bilmirəm ki, Rusiya Azərbaycanla Ermənistan arasında ciddi silahlı münaqişənin bərpasını istəyir. O, Azərbaycanla daha möhkəm əlaqələr qurmaq əzmindədir və Ermənistanla münasibətlərin daha da kəskinləşməsini istəmir. Putin tərəfindən imzalanan üçtərəfli atəşkəs bəyannaməsinin həyata keçirilməsini təmin etmək Kremlin maraqlarına uyğundur.

Şəxsən mən əminəm ki, əgər Azərbaycan və Ermənistan bir növ razılaşsaydılar və bu iş üzərində birgə çalışsaydılar, sonda Putin Rusiyanı bölgədəki dominant təsirindən məhrum etməmək üçün bu razılığa qarşı çıxmazdı.

**Tərcümə - Elçin Bayramlı**

## Erməni baş nazirin "uzaqgörənliyi"...



...Yadınızda olar, Nikol Paşinyan erməni parlamentdəki son çıxışlarının birində Azərbaycan tərəfinin Qarabağda yerləşən rus sülhməramlı kontingentinə qarşı "çılğın təbliğat" apardığını və bu "fakt"ların onu çox "narahat etdiyini" bildirmişdi. (...deyim ki, bu onun "humanist"liyinə, "ürəyinin böyüklüyü"nə dəlalət edir- A.B.)

Nikolun sözlərinə görə, bu gün Azərbaycanın əsas məqsədlərindən biri və bəlkə də ən başlıcası Qarabağdakı rus sülhməramlılarını nüfuzdan salmaqdır.

Deyim ki, Nikol bunu havadan demir, "tutarlı faktlar" da gətirir. Məsələn, Nikol deyir ki, neçə müddətdir Azərbaycan məhkum edilmiş erməni əsirlərinin mühakimə edirdi. Özü də mühakimə olunan erməni əsirlərinin əksəriyyəti üçtərəfli müqavilənin imzalanmasından sonra, yəni sülhməramlı kontingentin bu ərazilərə yerləşdirilməsindən sonra əsir götürülən "günahsız erməni balalarıdır".

İndi Nikola görə, belə çıxır ki, Bakı burada, rus sülhməramlılarının qanadı altına girib gizlənən erməni hərbçilərini tutub mühakimə etməklə, rus sülhməramlılarını bura göndərən rus səlahiyyətlilərinə onları saymadıqlarını demək istəyir. Yəni Nikolun dediyinə görə, guya Azərbaycan bununla Kremldə oturanlara demək istəyir ki, sizin bura sülhməramlı adı altında göndərdiyiniz hərbçilər, sadəcə yararsızdırlar.

...Doğurdanda, "tutarlı faktlardır". Belə ki, Nikolun bu kimi "tutarlı faktlara" əsaslanaraq fikir yürütməsi adamda belə "uzaqgörən" rəhbəri olan "ermənilərə, qarşı olan qibtə hissini" daha da artırır.

Deyim ki, Nikol "tutarlı faktlara" əsaslanaraq fikirlərini sonradan daha da "şaxələndirir". Bu dəfə o deyir ki, biz "humanist ermənilərdən" fərqli olaraq, Azərbaycan hələ də Rusiyanın "mavi dəbilqələri"nin mandatını imzalamayıb. Nikol bunu da əsas gətirərkən sual edir: əgər bu Bakı tərəfindən rus sülhməramlılarının nüfuzdan salınması deyilsə, bəs onda nədir?

***Ağasəf Babayev***

Səs
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
2 sentyabr
Son səhifə

# Ronaldo "Yunayted" formasında!



*Məşhur portuqaliyalı futbolçu Kriştiano Ronaldonun "Mançester Yunayted"ə qayıdışından sonra klubun forması ilə şəkilləri yayılıb. Portuqaliyalı ulduzun şəkillərini Mançester təsmilçisinin sosial şəbəkə hesabları paylaşıb. Qeyd edək ki, portuqaliyalı hücumçu "qırmızı şeytanlar"la 2+1 illik müqavilə imzalayıb.*

# Üzgüçümüz "Tokio-2020"də Azərbaycana 11-ci qızıl medalı qazandırdı




Üzgüçümüz Vəli İsrafilov "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarında Azərbaycana 11-ci qızıl medalı qazandırıb. AZƏRTAC xəbər verir ki, V.İsrafilov 100 metr məsafəyə brass üsulu ilə üzgüçülük yarışında məsafəni 1 dəqiqə 04,86 saniyəyə qət edərək bütün rəqiblərini qabaqlayıb və Paralimpiya çempionu olub. Təmsilçimiz, həmçinin bu nəticə ilə Paralimpiya rekordu müəyyənləşdirib.

Hazırda Azərbaycan komandasının hesabında 16 medal var. Onlardan 11-i qızıl, 1-i gümüş, 4-ü bürüncdür. Paracüdoçular Şəhanə Hacıyeva (48 kq), Sevda Vəliyeva (52 kq), Xanım Hüseynova (63 kq), Vüqar Şirinli (60 kq), Hüseyn Rəhimli (81 kq), Dürsədəf Kərimova (+70 kq) qızıl, Namiq Abaslı (66 kq) və İlham Zəkiyev (+100 kq) bürünc medallara sahib olublar.

Yüz metr məsafəyə arxası üstə və sərbəst üsulla üzgüçülük yarışlarında Raman Saleh Paralimpiya çempionu adını qazanıb. Nizəatma yarışlarında dünya rekordu müəyyənləşdirən para-atletimiz Həmid Heydəri qızıl medala sahib olub. Elvin Astanov nüvəitələmə yarışında birinci, Səid Nəcəfzadə isə uzunluğa tullanmada üçüncü yeri tutublar. Para-atlet Lamiyə Vəliyeva 100 metr məsafəyə qaçış yarışını ikinci pillədə başa vurub. Pauerliftinqçi Pərvin Məmmədov (49 kq) fəxri kürsünün üçüncü pilləsinə qalxıb. XVI Yay Paralimpiya Oyunları sentyabrın 5-dək davam edəcək.



# "Ayrılmadan əvvəl..."

Məşhur aktrisa Pelin Karahan ötən gün Zorlu Mərkəzində görüntülənib. SİA xarici mətbuata istinadən xəbər verir ki, tək başına alış-veriş edən aktrisa mağazalara baş çəkərək yeni mövsüm məhsullarını araşdırıb.

Tezliklə serial çəkilişləri üçün Kiprə gedəcəyini deyən Karahan, "Sentyabrın ilk həftəsində çəkilişlərimizə başlayacağıq. Ayrılmadan əvvəl çatışmayanları öyrənmək üçün bu gün bura gəldim "dedi. Onun idman üslubu və zərifliyi diqqətdən yayınmayıb.

***Ayşən Vəli***

# DİQQƏT: Utancaqlığı ən asan bu üsulla aradan qaldırmaq olar!



"İnsanlar xarakter baxımından bir neçə kateqoriyaya ayrılır. Elə insanlar var ki, onlarda utancaqlıq özünü daha çox biruzə verir. Sadəcə bu tək xarakterə məxsus olan xüsusiyyət deyil". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib. Onun sözlərinə görə, bəzən uşaqlarda kiçik yaşlarında valideynlər tərəfindən özgüvən sındırılması olur: "Məhz belə uşaqlarda da utancaqlıq yaranır. Məsələn, valideynlər deyir ki, "kimnənsə yemək götürmək olmaz!", "kiminsə əşyasına toxunmaq olmaz" və s. Bu tip, həddindən artıq perfeksionist valideynlərin uşaqlarında utancaqlıq özünü qabarıq şəkildə göstərir".

"Həmçinin, çox danlanan uşaqlarda da utancaqlıq olur. Bu tip insanlarda sözünü deyə bilməmək kimi xüsusiyyət var. Onlarda ünsiyyətə girə bilməmə problemi özünü göstərir. Gözləyirlər ki, özləri heç nə etməsin, deməsin, amma qarşı tərəf onları danışdırsın və yaxud da saatlarla dükanda vaxt keçirib bir söz soruşa bilmirlər".

Psixoloq sözlərinə belə davam edib: "Bəzən onlar çox kompleks yaşayırlar. Hətta, özgüvən o qədər aşağı düşür ki, evdən bayıra çıxa bilmirlər. Bu, artıq utancaqlığın ağırlaşmış formasıdır. Utancaqlıq ümumiyyətlə, xarakter kimi götürülərsə, bu hamımızda var. Amma, əsassız şəkildə və boş yerədirsə düzgün deyil. Məsələn, mən insanlar arasında yıxılmışamsa bundan utanmağım real səbəbdir. Biri də var real olmayan səbəblər. Məsələn, özünü kifir hiss etmək, kök hiss etmək, danışığını, səs tonunu bəyənməmək və s. Bunlar özgüvənin aşağı olduğunun göstəricisidir".

"Həlli yolu isə özgüvənin qaldırılması ilə olur. Bunun üçün də insanın müsbət xüsusiyyətlərini ona xatırlatmaq və göstərmək lazımdır".

***Ayşən Vəli***

# "Nar" Çağrı Mərkəzinə daxil olmuş sorğuların 93%-i ilk zəngdən öz həllini tapıb

"Nar"ın 777 Çağrı Mərkəzinə 2021-ci ilin ilk 6 ayı ərzində 1 milyondan artıq sorğu daxil olub və onlara ortalama 17 saniyə ərzində cavab verilib. Çağrı Mərkəzinə zəng etmiş abunəçilərin 89%-i göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib. Ümumilikdə, daxil olmuş sorğuların 93%-i ilk zəngdən öz həllini tapıb.

Bundan başqa, "Nar" rəsmi sosial şəbəkələri - "Facebook", "İnstagram" və "Twitter" səhifələri vasitəsilə də abunəçilərə xidmət edib və 89 mindən artıq sorğuya cavab verib. Sosial şəbəkələr vasitəsilə daxil olmuş müraciətlərin 50%-i 1 dəqiqə, 90%-i isə 10 dəqiqə ərzində cavablandırılıb. "Nar"ın bütün sosial şəbəkələrindən daxil olan sorğularına ortalama 11 dəqiqə ərzində cavab verilib.

Mobil operator, eyni zamanda abunəçilərin gündəlik həyatlarına rahatlıq və çeviklik gətirmək məqsədilə daim yenilənən "Nar+" tətbiqindəki onlayn çat vasitəsilə də müştərilərinə yüksək səviyyədə xidmət göstərməkdədir. Belə ki, 6 ay ərzində daxil olmuş 96 mindən artıq sorğuya operativ cavab verilib.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 91%-ni əhatə edir və 8780-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

nar

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600